ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI
ORTA İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI

# MUSİQİ ƏDƏBİYYATI

## VIII sinif (11 illik)

**Uşaq musiqi və incəsənət
məktəb şagirdləri üçün
proqram-konspekt**

**Tərlan Seyidovun ümumi redaktəsi ilə**

*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi Şurasının 24 aprel 2019-cu il tarixli 7 №-li protokolunun əmri ilə təsdiq edilmiş və nəşrə tövsiyyə olunmuşdur.*

**Bakı – 2022**

*Konspekt Uşaq musiqi və incəsənət məktəb şagirdləri üçün*
*AR Mədəniyyət Nazirliyinin proqramı əsasında*
*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının*
*Elmi-eksperimental laboratoriyası –*
*Orta ixtisas musiqi məktəb-studiyasında hazırlanıb*

**Layihənin müəllifi və rəhbəri:**

BMA-nın məktəb-studiyasının direktoru,
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Tərlan Seyidov**

**Məsul redaktorlar:**

BMA-nın məktəb-studiyasının aparıcı elmi işçisi
**Aytən İBRAHİMOVA**

BMA-nın məktəb-studiyasının müəllimi
**Rəna MƏMMƏDOVA**

**Tərtibçilər:**

BMA-nın məktəb-studiyasının müəllimi
**Gülbəniz ABDULLAYEVA**

BMA-nın məktəb-studiyasının böyük elmi işçisi
**Şəfəq HACIYEVA**

**Rəyçi və məsləhətçilər:**

"Musiqi tarixi" kafedrasının müdiri,
Azərbaycan Respublikasının Əməkdar müəllimi,
sənətşünaslıq üzrə fəlsəfə doktroru, professor
**Ülviyyə İMANOVA**

"Musiqi nəzəriyyəsi" kafedrasının müdiri,
sənətşünaslıq üzrə fəlsəfə doktroru, professor
**Könül NƏSİROVA**

# PROQRAM
## Birinci yarımil

*1-ci dərs.* **Operanın yaranması. Operanın əsas janrları ........ 5**

*2-ci dərs:* **İohann Sebastyan Bax (1685 – 1750). Həyat və yaradıcılığı ........ 6**

*3-cü dərs.* **İ.S.Bax. Klavir yaradıcılığı. «Fransız süitaları». «İngilis süitaları». «Yaxşı temperasiyalı klavir» ........ 7**

*4-cü dərs:* **İ.S.Bax. Orqan və vokal-instrumental yaradıcılığı. Tokkata və fuqa d-moll. Messa h-moll ........ 12**

*5-ci dərs:* **Georq Fridrix Hendel (1685 – 1759). Həyat və yaradıcılıq yolu. "Samson" oratoriyası........ 17**

*6-cı dərs.* **Kristof Villibald fon Qlyuk (1714 – 1787). Həyat və yaradıcılıq yolu. Opera islahatı ........ 19**

*7-ci dərs.* **K.V.Qlyuk. "Orfey və Evridika" operası ........ 21**

*8-ci dərs:* **Vyana klassik məktəbi ........ 24**

*9-cu dərs:* **Frans Yozef Haydn (1732 – 1809). Həyat və yaradıcılıq yolu ........ 25**

*10-cu dərs:* **F.Y.Haydn. Simfonik yaradıcılığı. 103 № li simfoniya ........ 26**

*11-ci dərs:* **Y.Haydn. Klavir yaradıcılığı. D-dur və e-moll sonataları ........ 30**

*12-ci dərs:* **Volfqanq Amadey Motsart (1756 – 1791). Həyat və yaradıcılıq yolu. Klavir yaradıcılığı. Sonata № 11 (A-dur), Fantaziya və sonata № 13 (c-moll) ........ 33**

*13-cü dərs:* **Motsart – opera reformatoru kimi. Opera yaradıcılığı. "Fiqaronun toyu", "Don Juan" operaları ........ 38**

*14-cü dərs:* **Motsart. Simfonik və vokal-instrumental yaradıclığı. Simfoniya № 40, 41 "Yupiter", Rekviyem ........ 47**

## İkinci yarımil


*1-ci dərs:* **Lüdviq van Bethoven (1770 – 1827). Həyat və yaradıcılıq yolu ............ 54**

*2-й урок.* **L.V.Bethoven. Simfonik yaradıcılığı. № 3 Es-dur simfoniyası. № 5 c-moll simfoniyası ............ 55**

*3-cü dərs:* **L.V.Bethoven. 6 №-li F-dur simfoniyası ("Pastoral"). "Eqmont" uvertürası ............ 61**

*4-cü dərs:* **L.V.Bethovenin kamera və instrumental yaradıcılığı. 1, 8, 14, 17, 21, 23 №-li fortepiano sonataları ............ 66**

*5 ci dərs:* **Musiqidə romantizm. F.P.Şubert. Həyat və yaradıcılıq yolu......... 79**

*6-cı dərs:* **F.Şubertin vokal yaradıcılığı. "Gözəl dəyrmançı qız", "Qış yolu" vokal silsilələr. F.Şubertin vokal yaradıcılığı ............ 81**

*7-ci dərs:* **F.P.Şubert. "Meşə çarı" balladası. Mahnılar. "Qu quşu mahnısı" məcmuəsi ............ 88**

*8-ci dərs:* **Şubertin simfonik və fortepiano əsərləri. «Tamamlanmamış» simfoniya. Ekspromtlar. Musiqili anlar ............ 91**

*9-cu dərs:* **K.M.Veber. Həyat və yaradıcılıq yolu. "Sehirli atıcı" operası ............ 96**

*10-cu dərs:* **Coakkino Rossini. Həyat və yaradıcılıq yolu. "Sevilya bərbəri" operası ..... 101**

*11-ci dərs:* **F.B.Mendelsonun həyat və yaradıcılıq yolu. Fortepiano yaradıcılığı. "Sözsüz mahnı" məcmuəsi ............ 107**

*12-ci dərs:* **F.Mendelsonun Violin və orkestr üçün konserti. Uvertüra «Yay gecəsində yuxu» ............ 111**

*13-cü dərs:* **Robert Şuman. Həyat və yaradıcılıq yolu (1810 – 1856) ............ 114**

*14-cü dərs:* **R. Şumanın fortepiano yaradıcılığı. «Karnaval» fortepiano silsiləsi ........... 116**

*15-ci dərs:* **R. Şuman. Vokal yaradıcılığı. «Şairin sevgisi» vokal silsiləsi ............ 120**

# K O N S P E K T L Ə R

## Birinci yarımil

*1-ci dərs.* **Operanın yaranması. Operanın əsas janrları.**

**Opera** (italyan dilindən *Opera* – iş, əmək) – musiqi, söz və səhnə hərəkətini özündə birləşdirən musiqili-dram əsəridir. Operanın ədəbi əsasını *libretto* təşkil edir.

Opera janrı İtaliyada XVI əsrin sonu – XVII əsrin əvvəllərində yaranmışdır. Opera janrının ilk nümunələri bəstəkar Yakopo Peri tərəfindən bəstələnmiş "Dafna" (1597) və "Evridika" (1600) operaları olmuşdur. "Opera" termini əsərdən xeyli sonra yaranmışdır. Belə ki, XVI – XVII əsrlərdə bu janrda ilk bəstələnmiş əsərlər "*drama per musica*" (musiqi əsasında dram) adlandırılırdı.

Yarandığı gündən opera təkmilləşmiş və hər cür dəyişikliklərə məruz qalmışdır. Beləliklə, XVIII əsrdə İtaliya operasında iki janr formalaşır: ***opera-seria*** və ***opera-buffa***.

**Opera-seria** (ital. *seria* – ciddi) – XVII əsrin sonu – XVIII əsrin əvvəllərində inkişaf etmiş italyan opera janrıdır. Onun əsasını qəhrəmani-mifoloji və ya əfsanəvi-tarixi süjet təşkil edir. Sadə hiss və düşüncələr iri formalı ariyalarda əks olunur və həmin nömrələr virtuoz müğənniyə həvalə olunurdu. A.Skarlatti, G.F.Hendel, N.Porpora, K.V.Qlyuk (opera islahatlarından əvvəl), V.A.Motsart (ilk operalar və "Titin mərhəməti") və b. öz yaradıcılıqlarında opera janrına müraciət etmişdilər.

XVIII əsrin ortalarında "kostyumlarda konsert" anlamı verən opera-seriyaya maraq azalır, belə ki, burada istifadə olunan musiqi, dramanın yalnız bəzi tərəflərini işıqlandıra bilirdi. Bütün bunlar italyan bəstəkarlarının (həmçinin Hendelin) o dövrə xas olan yaradıcı axtarışlarına gətirib çıxarır ki, onlar da öz növbəsində dramatik kulminasiyalarda dramatik reçitativlərin (*accompagnato* reçitativi)[1], ifadəli oxumanın rolunu artırmağa, orkestrin funksiyasını genişləndirməyə çalışmışlar.

XVIII əsrin 30-cu illərində Neapolda **opera-buffa** (italyanca *buffa* – komik) meydana gəlir. O, ciddi opera daxilində gülməli komediya səhnələrindən – intermediyalardan[2] yaranmışdır. İlk *opera-buffa* bəstəkar Covanni Batista Perqolezinin "Xidmətçi-xanım" operasıdır. Bu operanın uğurlu səhnə həyatı *opera-buffanın* müstəqil bir əsər kimi inkişafına yol açmışdır.

Həmin dövrdə **lirik faciə** fransız operasında əsas opera janrı kimi xüsusi yer tuturdu. Lirik faciə opera janrı beş pərdə, geniş proloq və apofeozdan ibarət monumental əsər kimi yazılırdı. Eyni zamanda onun səciyyəvi xüsusiyyətlərindən biri də çox sayda balet səhnələrinin olması idi. Fransız milli operasının banisi italyan bəstəkarı Jan Batist Lülli olmuşdur.

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Almaniya və Avstriyada zinqşpil adlanan musiqili-dramatik janr yaranmışdır. Zinqşpilin musiqisi sadədir və xalq musiqi mədəniyyəti ilə sıx bağlıdır. Fransız komik operası kimi, zinqşpil də danışıq dialoqu ilə kəsişən musiqi nömrələrindən ibarətdir. Motsartın "Saraydan qaçırılma" və "Sehrli fleyta" operaları bu janrın parlaq klassik nümunələridir.

---

[1] *Accompagnato* reçitativi – (*ital. "müşayiətli reçitativ").* Bu reçitativ müxtəlif alətlərin, bəzən də bütün orkestrin dolğun müşayiəti ilə səslənir.

[2] Intermediya – Dram və ya opera tamaşasının pərdələri arasında göstərilən kiçik komik səhnə və ya pyes.

***Mövzuya aid suallar:***

1. Opera nədir?
2. Opera nə vaxt və harada yaranmışdır?
3. XVIII əsrdə operanın hansı janrları formalaşmışdır?
4. *Opera-serianın* iflasa uğramasının səbəbi nə olmuşdur?
5. XVIII əsrdə *buffa* və *seria* operaları ilə yanaşı hansı opera janrı meydana gəlmişdir?

*2-ci dərs:* **İohann Sebastyan Bax (1685 – 1750). Həyat və yaradıcılığı.**

İ.S.Bax – alman bəstəkarı, orqan və klavesinin virtuoz ifaçısı, müəllim, barokko dövrünün parlaq nümayəndəsidir. Bax 1000-dən çox əsərin müəllifidir. Onun yaradıcılığında operadan başqa o dövrün bütün mühüm janrları təqdim olunur. Bəstəkarın zəngin yaradıcılığına vokal və instrumental (kantatalar, oratoriyalar, messalar), orqan (xoral işləmələr, prelüdlər, fantaziyalar, tokkatalar və fuqalar), kamera instrumental (klavir, violin və digər alətlər üçün əsərlər) musiqisi daxildir. Eyni zamanda İ.S.Bax instrumental ansambllar üçün bir sıra əsərlər (prelüd və fuqalar, rəqs süitaları və konsertlər) yaratmışdır.

Baxın musiqisinə maraq, onun ölümündən təxminən yüz il sonra yaranıb: 1829-cu ildə Feliks Mendelson-Bartoldinin rəhbərliyi ilə Baxın ən böyük oratoriyası – “Matfeyin iztirabları”[3] ifa olunur. Baxın musiqisinə maraq məhz bu konsertdən sonra yaranmışdır.

**İ.S.Bax** 21 mart 1685-ci ildə Ayzenaxda anadan olub. O, peşəkar musiqiçilər nəslinə mənsub idi. Uşaq vaxtından ilk müəllimi öz atası olmuşdur. Lakin doqquz yaşında İohann valideynlərini itirir və böyük qardaşının himayəsinə keçir. Qardaşının rəhbərliyi altında gimnaziyada təhsil almağa başlayır, orqan, klavisin çalır, xorda oxuyur. 1700 – 1703-cü illər ərzində Bax Lüneburqda yaşayır, burada şagirdlik və ilk gənclik illərini keçirmişdir.

İ.S.Baxın sonrakı həyatı və yaradıcılıq yolu əsasən Veymar, Köten və Leypsiq dövrlərinə bölünür. İ.S.Bax təxminən on il Veymarda yaşamışdır. Burada o, sarayda orqan ifaçısı, orkestr kapellasında musiqiçi kimi, həmçinin 1714-cü ildən xormeyster köməkçisi vəzifəsində işləmişdir. Veymar dövründə bəstəkar orqan üçün bir sıra əsərlər bəstələmişdir. Bura re minor tokkata və fuqası, lya minor prelüd və fuqası, do minor prelüd və fuqası, Passakaliya kimi əsərlər daxildir. Orqan yaradıcılığında Bax öz sələflərinin – alman əsilli orqan ifaçılarının Reynken, Paxelbel, Bukstexudenin çoxdan formalaşmış ənənələrinə arxalanırdı. Eyni zamanda o, italyan bəstəkarlarının instrumental yaradıcılığı ilə maraqlanırdı ki, bu da onun daha da təkmilləşməsinə kömək edirdi. Veymarda Bax fransız klavisinistlərinin, xüsusən də görkəmli fransız bəstəkarı Fransua Kuperenin yaradıcılığını dərindən öyrənirdi. Bax öz klavir musiqi üslubunu inkişaf etdirərək klavesin üçün əsərlər yaratmışdır.

İ.S.Baxın yaradıcılıq yolunda növbəti mühüm mərhələ Köten dövrüdür. Bu şəhərdə Bax kiçik bir saray orkestrinə rəhbərlik edir, həmçinin Köten şahzadəsinin mahnı oxumağına müşayiət edirdi. Asudə vaxtlarında isə bəstəkar öz yaradıcılığı ilə məşğul olurdu. Baxın sevimli aləti orqan bu şəhərdə olmadığından bəstəkar kamera-instrumental musiqi bəstələməyə başlayır. Beləliklə, 1720-ci ildə onun klavir üçün “Xromatik fantaziya və fuqa” əsəri meydana çıxır, 1722-ci ildə isə bəstəkar “Yaxşı temperasiyalı klavir” adlı prelüd və fuqalarının birinci cildi üzərində işi tamamlayır. Kötendə 6 İngilis, 6 Fransız, 6 İtalyan klavir süitaları da yazılmış, eyni zamanda digər alətlər üçün də ən yaxşı əsərlər meydana çıxmışdır. Bu, solo violin üçün 6 sonata, instrumental ansambl üçün 6 "Brandenburq konserti"dir. Sadalanan musiqi əsərləri Baxın Köten dövründə yazdığı ən görkəmli əsərləri sırasındadır.

---

[3]Yəni Matfey tərəfindən İncildə təsvir edilmiş İsa Məsihin əzabları.

1723-cü ildə İ.S.Bax Müqəddəs Tomas məktəbinin kantoru təyin edilir və ailəsi ilə birlikdə Leypsiqə köçür. Leypsiq o dövrdə Almaniyanın iqtisadi cəhətdən inkişaf etmiş və mədəni mərkəzi idi. İ.S.Bax bu səbəbdən Leypsiqdə yaşamaq və işləməyi üstün bilmişdir. Burada o, geniş musiqi fəaliyyətini inkişaf etdirir və 1729-cu ildən "Collegium musicum" adlanan musiqi cəmiyyətinə rəhbərlik edir. Leypsiqdə Bax yaradıcılıq gücünün tam çiçəklənmə dövründə idi. Bu illər ərzində o, beşsəsli xor, solistlər və orkestr üçün "Maqnifikat" adlı vokal kompozisiyaları, "İoannın iztirabları", "Matveyin iztirabları", "Cənazə qəsidəsi", "Yüksək messa" (h moll) əsərlərini yazmışdır. 1944-cü ildə Bax "Yaxşı temperasiyalı klavir" in ikinci cildini tamamlayır.

İ.S.Bax bəstəkarlıq və musiqili ictimai fəaliyyətlə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olurdu. Bəstəkar kiçik yaşlı və gənc musiqiçilər üçün müxtəlif əsərlər (invensiyalar, pyes məcmuələri, prelüdlər) bəstələyirdi. Bu əsərlər hələ də müəllimlər tərəfindən əvəzolunmaz musiqili proqram kimi istifadə olunur.

Ömrünün son illərində Baxın görmə qabiliyyəti pisləşsə də, buna baxmayaraq, o, öz diktəsi ilə yazılan musiqi əsərlərini yaratmağa davam edirdi.

Bax 1750-ci ildə xəstəlikdən vəfat edir.

Baxın musiqisi ondan sonra gələn bəstəkarların yaradıcılığına böyük təsir göstərmişdir. Onun əsərləri dünya musiqiçiləri tərəfindən ifa olunur.

***Mövzuya aid suallar:***

1. İ.S.Bax hansı dövrün nümayəndəsidir?
2. İ.S.Baxın əsərləri hansı janr qruplarına bölünür?
3. İ.S.Baxın musiqisini XIX əsrdə hansı bəstəkar və necə "kəşf etmişdir"?
4. İ.S.Baxın həyat və yaradıcılığı hansı dövrlərə bölünür?
5. Həmin dövrlərdə hansı əsərlər yazılmışdır?

## *3-cü dərs.* İ.S.Bax. Klavir yaradıcılığı. «Fransız süitaları». «İngilis süitaları». «Yaxşı temperasiyalı klavir».

Bəstəkar bütün yaradıcılığı boyu klavir əsərləri yazıb. Belə ki, Arnstadtda "Sevimli qardaşımın gedişi üçün Kapriççio" yaratmışdır, Veymarda klavir konsertləri üzərində işləyirdi. Bax klavir əsərlərinin əhəmiyyətli bir hissəsini 1717-1723-cü illərdə Kötendə yaratmışdır. Burada "YTK"nın birinci cildi, xromatik fantaziya və fuqa, fransız və ingilis süitaları yaranmışdır. Bax klavir musiqisini yaradıcılığının son "Leypsiq" dövründə də bəstələyirdi. Bu dövrə "YTK"nın ikinci cildi, partitalar məcmuəsi, Qoldberq variasiyaları, üç klavir üçün konsertlər daxildir.

**Süitalar.** Baxın yaradıcılığına hər biri 6 pyesdən ibarət 3 klavir süitası aiddir: 6 fransız, 6 ingilis, 6 partita[4].

Süita (fr. "ardıcıllıq") – ümumi bədii fikirlə birləşən bir neçə müxtəlif pyesdən ibarət musiqi əsəridir.

Fransız süitalarının məişət musiqisi ilə sıx əlaqəsi var. Bu süitalarda mövcud olan klavir üslubunun və fakturanın sadəliyi göstərir ki, bu əsərlər, görünür, daha çox ev şəraitində ifa olunmaq üçün və musiqisevərləri feyziyab etmək üçün nəzərdə tutulub. Ənənəvi süitada olduğu kimi, Baxın altı süitasında da – allemanda, kuranta, sarabanda və jiqa yer almışdır. Sarabanda və jiqa arasında adətən əlavə musiqili nömrə (intermetso) səslənir. Bunlar menuet, qavot, paspye və s. rəqslər, yaxud da ariya adlı bir pyes ola bilər.

[4] Partita (ital. "hissələrə bölünmüş") – 5 hissədən ibarət konsert xarakterli süita.

**İngilis süitalarında** süita silsiləsinin həcmi genişləndirilir. Üslub, texnika və ifadə tərzi daha virtuoz – konsert xarakterli olur. Rəqslərin ardıcıllığı Fransız süitaları ilə eynidir. Bununla belə, hər hansı bir ingilis süitası giriş pyesi – prelüd ilə açılır. Hər iki topludakı süitaların bütün hissələri eyni tonallıqda yazılır.

**“Yaxşı temperasiyalı klavir”. “**YTK” – İ.S.Baxın klavir üçün bəstələdiyi 2 cildli 48 prelüd və fuqadan ibarət pyeslər silsiləsidir. Hər cild 24 tonallığın xromatik ardıcıllığı ilə verilmiş 24 əsərdən ibarətdir.

“YTK”nın pyesləri, Baxın əksər instrumental əsərləri kimi, qeyri-proqram musiqisi sahəsinə aiddir, lakin bəzi prelüd və fuqalarda bir çox musiqiçilər “YTK”nın gizli proqramlılıq prinsipinə nəzər yetirmiş və bibliya məzmunu ilə əlaqələndirmişlər. Beləliklə, məsələn, I cilddən beşsəsli ***cis-moll*** fuqasında vəftiz zamanı əlin hərəkətini təsvir edən melodik ifadə səslənir.

***Fuqa cis-moll:***




Baxın dövründə geniş yayılan natural quruluşda yazılmış, açar işarələri sayı çox olan musiqi əsərləri xaric səslənirdi. Məhz bu səbəbdən Bax “YTK”da temperasiyalı quruluşdan istifadə edir və oktavanı 12 bərabər yarımtona bölür. Bunun sayəsində bütün diyez və bemollu tonallıqlar bərabər əhəmiyyətə malik olur.

Baxın nümunəsindən ilhamlanaraq başqa bəstəkarlar da 24 prelüd və fuqadan ibarət öz toplularını yaratmışdılar. Məsələn, XX əsrin ortalarında oxşar əsərlər silsiləsi Dmitri Şostakoviç və Rodion Şedrin tərəfindən yazılmışdır.

Baxın prelüd və fuqalardan ibarət monumental silsiləsi – “Yaxşı temperasiyalı klavir”i musiqi sənətinin ən yüksək nailiyyətlərindən biri hesab olunur.

Prelüd və fuqaların musiqi obrazlarının bir-biri ilə təzadlılığı “YTK”nın əsas prinsipidir. Lakin nadir hallarda musiqi obrazlarının ümumi məzmunu ilə seçilən prelüd və fuqalara rast gəlinir. Bunlardan biri *es-moll* prelüd və fuqasıdır (I cild).

**Es-moll prelüd və fuqası** (I t.) – “YTK”nın ən lirik və mahnıvari silsilələrindən biridir. Prelüd sarabandanın ritminə əsaslanır.

***Prelüd es-moll:***
[https://www.youtube.com/watch?v=1bFhoE-oYNA](https://www.youtube.com/watch?v=1bFhoE-oYNA)




Onun mənaca bir-birinə zidd olan iki səs istiqaməti var: qəm-qüssə, qəlb iztirablı intonasiyaları, və müntəzəm hərəkətli akkordların müşayiəti ilə asta səslənən zəng səsi. **Fuqa** düşüncəli və kədərli xor mahnısı kimi səslənir.

***Fuqa es (dis)-moll:***
https://www.youtube.com/watch?v=1bFhoE-oYNA (səslənmənin vaxtı – 4:24)




Mövzu hər cür polifonik dəyişikliklərə məruz qalır. Burada dönmələr, ritmik dəyişikliklər və strettalar mövcuddur.

**Prelüd və fuqa C dur (I cild).** C-dur prelüd və fuqası “YTK”nın ən məşhur pyesidir. Bu silsilənin prelüdü özünəməxsus incəliyi və sadəliyi ilə bütün dövrlərin və xalqların musiqiçiləri tərəfindən qəbul olunmuşdur. Prelüd onaltılıqlarla fasiləsiz hərəkət edən *arpegio* şəkilli akkordların üzərində qurulub. Prelüdün musiqisi kövrək və ülvidir.

***Prelüd C-dur:***
https://www.youtube.com/watch?v=uOxC7uyTh2M




Bu əsərin məzmun əsasını Məsihin doğum günü təşkil edir ki, bu da öz növbəsində bəşəriyyət tarixində ən böyük və dönüş nöqtələrindən biri olan yeni bir dövrün geri sayım başlanğıcı sayılır. Məşhur fransız bəstəkarı Şarl Quno Baxın prelüdünə vokal partiya əlavə eədərək “Ave Mariya” adlı vokal əsərini yaradır və bununla əsərin dini əsasını təsdiqləyir. Bax və Quno musiqisinin vəhdətindən yaranmış bu əsər çox məşhurdur və musiqiçilər tərəfindən tez-tez ifa olunur.

**Fuqa** prelüdə əks olaraq təmkinli və inamlı musiqisi ilə seçilir.

***Fuqa C-dur:***
https://www.youtube.com/watch?v=O1p93RvhOU8 (səslənmənin vaxtı – 2:10)



O, səs sıxlığı və nadir polifonik dolğunluğu ilə fərqlənir. Fuqa mövzu baxımından "Rəbbin hər nə etsə, xeyire doğru edir" xoralının ilk bəndinə əsaslanır. Fuqa çoxlu strettalar[5] əmələ gətirərək, yalnız mövzunun səslənməsi üzərində qurulur.

**Prelüd və fuqa c moll.** Silsilənin prelüdü *Allegro – Presto – Adagio – Allegro* templərinin dəyişməsi üzərində qurulub və barokko dövrünün orqan musiqisi üslubunda yazılmışdır. Son hissədə dominantanın orqan punktunda kadensiya və dramatik ifadəli reçitativ səslənir.

***Prelüd c-moll:***
https://www.youtube.com/watch?v=uc60J4oF9qg




Hərəkətli, kəskin ritmli üçsəsli **c-moll fuqası** zərif, oynaq xarakterli polifonik *skertsetto* kimi qəbul edilir.

***Fuqa c-moll:***
https://www.youtube.com/watch?v=uc60J4oF9qg (səslənmənin vaxtı – 1:30)




**Prelüd və fuqa D dur.** Prelüdün musiqisi yüngüllük, zəriflik və ritmik elastikliyi ilə seçilir.

***Prelüd D-dur:***
https://www.youtube.com/watch?v=R9EtpS4i-FY




**Fuqanın** gur və əzəmətli musiqisi fransız uvertürasına xas "teatr" üslubunda yazılmışdır. Mövzuda sekstaya doğru sıçrayışlar, punktirli ritm gözə çarpır və geniş intermediyalarda daha çox inkişaf edir.

---

[5] *Stretta* – ital. "Sıxmaq" deməkdir. Stretta əvvəlki səsdə mövzu sona çatmamış imitasiya edən səsin başlanmasına deyilir.

***Fuqa D-dur:***
https://www.youtube.com/watch?v=R9EtpS4i-FY (səslənmənin vaxtı – 1:31)




**Prelüd və fuqa d moll.** Prelüd boyu aşağı səsdə səkkizliklərin fonunda verilmiş onaltılıqların yüngül, iti hərəkəti və "orqan" akkordlarının kulminasiya nöqtəsində səslənməsi prelüdün improvizə xarakterli olduğunu vurğulayır.

***Prelüd d-moll:***
https://www.youtube.com/watch?v=fgtrdXPBJwU




**Fuqanın** kədərli, təmkinli mövzusu polifonik dəyişikliklərə məruz qalır.

***Fuqa d-moll:***
https://www.youtube.com/watch?v=fgtrdXPBJwU (səslənmənin vaxtı – 1:36)




**Prelüd və fuqa g-moll.** Silsilənin hər bir pyesi müstəqil musiqi və poetik obrazın inkişafına əsaslanır. Aydın, şəffaf xarakterli prelüd

***Prelüd g-moll:***
https://www.youtube.com/watch?v=eAL7UahpVXo




qəmli düşüncələrlə dolu fuqaya keçid alır.

***Fuqa g-moll:***
*https://www.youtube.com/watch?v=eAL7UahpVXo* (səslənmənin vaxtı – 2:19)




***Mövzuya aid suallar:***

1. Baxın süitalarının əsasını hansı rəqslər təşkil edir və hansı nömrələr əlavə olunmuşdur?
2. Fransız və İngilis süitalarının quruluşlarını fərqləndirən cəhət nədir?
3. Hansı səbəbdən İ.S.Bax 48 prelüd və fuqadan ibarət silsiləsini "Yaxşı temperasiyalı klavir" adlandırmışdır?
4. Nüfuzlu musiqiçilər "YTK"nın aşkar olmayan proqramlılığını hansı mövzu dairəsi ilə əlaqələndirirdilər?

*4-cü dərs:* **İ.S.Bax. Orqan və vokal-instrumental yaradıcılığı. Tokkata və fuqa d-moll. Messa h-moll.**

**Orqan yaradıcılığı.** Bax sağlığında daha çox virtuoz orqan ifaçısı, müəllim və orqan musiqisinin bəstəkarı kimi tanınırdı. O, orqan üçün əsərlərində müxtəlif musiqi üslublarının xüsusiyyətlərini məharətlə birləşdirmişdir. O, təkcə sələfləri olan alman bəstəkarları Paxelbel, Böm, Bukstexude musiqisindən deyil, həm də fransız və italyan müəlliflərinin əsərlərindən bəhrələnmişdir. Belə ki, o, Vivaldinin bir neçə violin konsertlərini orqan üçün köçürtmüşdür.

Baxın orqan əsərləri iki əsas növə bölünür. Onlardan biri "sərbəst" janrların birləşməsindən ibarət böyük musiqili silsilələrdir. Bunlar ciddi formalı fuqalarla birgə səslənən prelüdlər, fantaziyalar, tokkatalar və passakaliyalardır. Bu qrup silsilələr orqan üslubuna xas konsert

xarakteri, dramatik obrazları və virtuozluğu ilə xarakterizə olunur. Digər növ isə birhissəli xoral prelüdlərdir. Onların musiqi əsasını xalq mahnı yaradıcılığı və daha çox kamera üslubunda yazılmış protestant xorallarının melodiyaları təşkil edir. İnanclı olan İ.S.Bax bu əsərlərdə xristian dininin obrazları ilə bağlı ülvilik, kədər, iztirab və məhəbbət hisslərini ortaya qoyur. Baxın dörd topluda cəmləşən 150-dən çox xoral prelüdləri var.

**Tokkata**[6] **və fuqa d-moll.** İ.S.Bax, yaradıcılığının bütün dövrlərində orqan üçün musiqi yazsa da, bu qəbildən olan ən mükəmməl əsərləri Veymarda yaradılmışdır. *D-moll* tokkata və fuqası bəstəkarın bu dövrdə yaratdığı şah əsərlərdən biridir.

Bu polifonik silsilənin xüsusiyyəti ondan ibarətdir ki, musiqi materialının inkişafı fasiləsizdir (tokkata və fuqa arasında fasilə yoxdur). Kiçik silsilənin forması tokkata və fuqadan ibarətdir və sonda verilmiş koda tokkata ilə səsləşərək mövzu bağlılığı əmələ gətirir.

Tokkatanın musiqisi qüdrətli güc, üsyankarlıq təsiri bağışlayır. Kiçik, lakin çox təsirli olan giriş mövzunun ilk səslərindən möhtəşəm coşqunluq duyulur və bu abu-hava gələcək musiqi inkişafına təsir edir. Giriş mövzusu, sanki kulminasiyadan başlayır. Belə ki, əsərin əvvəlində deklamasiya, oratorluq, çağırışlı intonasiyalara əsaslanan güclü orqan unisonu səslənir.

***Tokkata d-moll:***

https://www.youtube.com/watch?v=Nnuq9PXbywA




Oxşar intonasiyalar dördsəsli **fuqanın** mövzusunun əsasını təşkil edir (minor qamması ilə beşinci pillədən aparıcı tona qədər enir). Bu mövzu tokkatanın ikinci hissəsi ilə oxşardı. Burada gizli ikisəslinin əmələ gəlməsini, "lya" səsinin çox sayda təkrarlanmasını, eyni ritmik şəklin mövcudluğunu müşahidə etmək olar.

***Fuqa d-moll:***

https://www.youtube.com/watch?v=Nnuq9PXbywA (səslənmənin vaxtı – 2:30)




Onaltılıqların fasiləsiz ostinatolu "qaçışı" fuqaya enerjili və motorlu xarakter vermiş olur.

**İ.S.Baxın si minor messası** ("Yüksək messa") – katolik liturgiyasının[7] latın mətninə yazılmış solistlər, orqan, xor və orkestr üçün əsərdir. Bax *h-moll* messası üzərində uzun illər

---

[6] Tokkata (ital. toxunmaq) – qısa və eyni ölçülü, cəld və dəqiq hərəkətli instrumental pyes.

işləmiş və 1738-ci ilin sonunda tamamlamışdır. Bu əsər bəstəkarın sağlığında heç vaxt tam şəkildə ifa olunmayıb. Si minor messası İ.S.Baxı saray bəstəkarı təyin etmiş Sakson hökmdarı Fridrix Avqusta həsr olunmuşdur.

Messa janrı tarixən beşhissəli əsər şəklində formalaşmışdır. Hər bir hissənin özünəməxsus dramaturgiyası var. Bunlar, bağışlanma üçün yalvarışlar – "Kyrie" ("Ya Rəbb, rəhm et"), həmd və şükür himni – "Qloriya" ("Allaha həmd olsun"), doqmatik[8] hissə – "Credo" ("Mən bir Tanrıya inanıram"), liturgik kulminasiya – "Sanctus" ("Müqəddəs Rəbb") və yekunlaşdıran hissə – Rəbb İsa Məsihin şəninə təriflər – "Agnus Dei" ("Tanrının Quzusu"). Əvvəllər messanın mətni qiraət edilirdi, sonralar nəğmə şəklində oxunmağa başladı və XIV əsrdə nəhayət vahid musiqi quruluşu formalaşmışdı.

Baxın *h-moll* messası ənənəvi messalarla müqayisədə inanılmaz dərəcədə böyükdür. O da, həmçinin beş hissədən ibarətdir – *Kyrie, Gloria, Credo, Sanctus* və *Agnus Dei* – lakin onlar da öz növbəsində bir neçə ayrı-ayrı nömrələrə bölünür.

*H-moll* messası böyük fəlsəfi müdrikliyi, insanlığı, hisslərin dərinliyini təcəssüm etdirən bir əsərdir.

*I hissə (Kyrie)* xorun tutqun səslənməsi ilə açılır,

***I hissə – Kyrie ("Ya Rəbb, rəhm et"):***
https://www.youtube.com/watch?v=bUkTOBT21MU



sonra isə əvvəlcə orkestrdə səslənən fuqa başlayır. Onun kədərli, sanki əzab içində qıvrılan mövzusu, dərin ifadəliyi ilə fərqlənir.

***Fuqa:***
https://www.youtube.com/watch?v=bUkTOBT21MU (səslənmənin vaxtı – 0:38)




*II hissənin (Gloria, № 4)* əvvəlində, trubaların ifasında sevincli, işıqlı musiqi səslənir və xor bu ifaya qoşularaq şənlik mövzusunu davam etdirir.

---

[7] Liturgiya – xaçpərəstlərin ən əsas ibadət ayini.
[8] Doqma – yun. "rəy, qərar" – kilsənin dəyişməz bir həqiqəti elan etmə ifadəsi.

***II hissə – Gloria (“Allaha həmd olsun”):***

[https://www.youtube.com/watch?v=vCGmOXkyZsw](https://www.youtube.com/watch?v=vCGmOXkyZsw) (səslənmənin vaxtı – 0:25)




*III hissədə (Credo, №№ 12-19)* dramatik təzadlar üstünlük təşkil edir.

***III hissə – Credo (№№ 12 – 19, “Mən bir Tanrıya inanıram”):***

[https://www.youtube.com/watch?v=ugRzKCErep4](https://www.youtube.com/watch?v=ugRzKCErep4)



Sonra Xilaskarın çarmıxda çəkdiyi əzablardan bəhs edən messanın faciəli kulminasiyası – *Crucifixus* (Çarmıxa çəkilmə, № 16) başlayır. *Crucifixus* italyan *lamento* ariyasının ruhunda passakaliya formasında yazılmışdır. Basda 13 dəfə eyni melodiya rəvan hərəkətlərlə, tutqun xromatik gedişlə gedir. Onun fonunda – simli və ağac nəfəslilərin ayrı-ayrı akkordları, xorun ah-naləyə bənzər qırıq replikaları səslənir.

***Crucifixus (№ 16, «Çarmıxa çəkilmə»):***

[https://www.youtube.com/watch?v=hyUDe-_l6xQ](https://www.youtube.com/watch?v=hyUDe-_l6xQ)



Sonda melodiya sanki zəifləyərək itir. Hər şey sükuta qərq olur. Və dərhal, həyatın ölüm üzərində qələbəsini vəsf edən vüsətli və sevincli *Et resurrexit (Dirilmə, № 17)* xoru səslənir.

***Et resurrexit* (№ 17, «Dirilmə»):**

[https://www.youtube.com/watch?v=hxA05jxbMMU](https://www.youtube.com/watch?v=hxA05jxbMMU)



Birləşdirilmiş *IV və V hissələr* qadın səslərində eşidilən şən yubilyasiyalarla (lat. *Jubilus* – geniş melizmatik oxuma tərzi) əzəmətli *Sanctus* (№ 20) xoru ilə açılır. Orkestrdə trubaların fanfarları, litavraların titrək səsi eşidilir.

***Sanctus* («Müqəddəs tanrı»):**

[https://www.youtube.com/watch?v=MKSepgvTxfM](https://www.youtube.com/watch?v=MKSepgvTxfM)




Son hissədə (Agnus Dei) violinin ifadəli səslənməsi ilə müşayiət olunan violanın (altın) ifasında ruh yüksəkliyi bəxş edən ariyası səslənir.

***Agnus Dei* («Tanrının Quzusu»):**

[https://www.youtube.com/watch?v=tdLCcQixNvg](https://www.youtube.com/watch?v=tdLCcQixNvg)



***Mövzuya aid suallar:***

1. Baxın orqan əsərləri hansı iki növə bölünür?
2. Tokkata janrı nədir?
3. *D-moll* tokkata və fuqa silsiləsinin əsas xüsusiyyəti nədən ibarətdir?
4. Messa nədir?
5. Baxın *h-moll* messası ənənəvi messadan nə ilə fərqlənir?

*5-ci dərs:* **Georq Fridrix Hendel (1685 – 1759). Həyat və yaradıcılıq yolu. "Samson" oratoriyası.**

**Georq Fridrix Hendel** – barokko dövrünün alman bəstəkarıdır. Hendel 40-a yaxın opera, 32 oratoriya, çox sayda kilsə xoralı, orqan konsertləri, kamera-vokal və instrumental musiqi yazmışdır. Eyni zamanda "Samson" və "Messiya" oratoriyaları, "Su üzərində musiqi" («Музыка на воде»), "Kral atəşfəşanlığı üçün musiqi" («Музыка для королевских фейерверков») bəstəkarın ən məşhur əsrlərinə daxildir.

Hendel 1685-ci ildə Halledə[9] anadan olmuşdur. O, dörd yaşında özü klavesin çalmağı öyrənmişdir. 9-11 yaşlarına qədər Hendel Halledə bəstəkarlıq üzrə Saxaudan dərs alır, eyni zamanda orqan, klavesin, violin və qoboyda ifa etməyi öyrənir. 18 yaşında Halledəki gimnaziya və universitetdə oxuyan Hendel, o dövrdə yeganə Alman opera teatrının yerləşdiyi Hamburqa köçür və burada violin, klavesin ifaçısı kimi işləməyə başlayır. Hendel 20 yaşında, "Almira" və "Neron" adlı ilk operalarını yazmışdır. Həmin il Lübekdə o, məşhur bəstəkar və orqan ifaçısı Bukstehudeni dinləmək üçün bu şəhərə gələn İ.S.Baxla görüşmüşdür.

1706-cı ildə Hendel İtaliyaya gəlir və burada italyan bəstəkarlarının opera yaradıcılığı ilə tanış olur. İtaliyada o, bir neçə oratoriya və kantata, eləcə də İtaliya tamaşaçısı tərəfindən rəğbətlə qarşılanmış "Rodriqo" və "Aqrippina" operalarını yazmışdır.

1710-cu ildə Hendel Hannover şəhərində gələcəkdə Böyük Britaniya kralı olacaq kurfürst[10] I Georqun sarayında kapelmeyster kimi çalışmışdır. Bir müddət sonra bəstəkar knyazın icazəsi ilə Londona gedir. Londonda məşhurlaşan Hendel yeni "Rinaldo" operası üzərində çalışmağa başlayır. Operanın premyerası böyük rəğbətlə qarşılanır. 1713-cü ilin yanvar ayında Hendel "Te Deum"[11] monumental əsərini və "Kraliçanın ad gününə oda" nı yazır. "Te Deum"un uğurundan sonra bəstəkar birdəfəlik İngiltərədə yaşamağı planlaşdırır.

Hendelin həyatının London dövrü geniş və məhsuldar olmuşdur. O, operalar, oratoriyalar, kantatalar, eləcə də "populyar" xarakterli bir sıra əsərlər yazmışdır. 1720-1730-cu illərdə Hendel əsasən opera musiqisi üzərində işləyirdi. Bura "Flavio", "Yuli Sezar", "Rodelinda", Kserks" operaları, həmçinin "Alsina", "Ariodant" adlı opera-baletlər aid edilə bilər. 1720-1728-ci illər arası Hendel Kral Musiqi Akademiyasının direktoru vəzifəsində işləyirdi.

Hendel 1741-ci ildə "Messiya" oratoriyasını yazır. Bu əsər bibliya obrazlarında təcəssümünü tapmış həyat və ölüm haqqında musiqili-fəlsəfi poemadır. 18 fevral 1743-cü ildə Hendelin Miltonun mətninə yazdığı "Samson" oratoriyasının ilk ifası baş tutmuşdur. Hendelin rəqibləri hər bir yola əl atırdılar ki, bəstəkarın konsertlərinə mane olsunlar, və bir qədər sonra onlar öz niyyətlərinə nail olurlar. Hendel xəstələnir, müəyyən zaman sənətindən uzaqlaşır, lakin kənar təsirlər bəstəkarı ruhən sındıra bilmir.

---

[9] Halle – Almaniyanın Zale çayı yaxınlığında yerləşən şəhər.
[10] Kurfürst – imperator seçmək hüququna malik olan nüfuzlu knyaz.
[11] Te Deum – qədim xristianlıq himni.

11 avqust 1746-cı ildə Hendel bibliya mövzusuna aid özünün ən yaxşı əsərlərindən birini – “İuda Makkavey” oratoriyasını bitirir.

1753-cü ildə bəstəkarın səhhəti daha da pisləşir və o, tamamilə kor olur. Ölümündən bir neçə gün əvvəl o, "Messiya" oratoriyasına dirijorluq etmişdir. Tamaşa zamanı o, tamamilə gücdən düşür və bir müddət sonra vəfat edir.

**“Samson” oratoriyası.** Oratoriyanın əsasını İsrail xalqının lideri Samson haqqında Bibliya əfsanəsi təşkil edir. Rəvayətə görə, Samson möcüzəvi (saçlarında gizlənmiş) gücə malik idi ki, bu da öz xalqının düşmənlərini – fələstinliləri qorxuda saxlayırdı. Samsonun həyat yoldaşı, fələstinli Dalila ona xəyanət edir: yuxuda olan qəhrəmanın saçını kəsir. Gücsüz qalan Samsonu zəncirləyir, kor edir və zindana atırlar. Müdafiədən məhrum olan xalq da əsarətə düçar olur. Lakin tanrıları yəhudi xalqının dualarını eşidir və Samsonun əzabına rəhm edir. Fələstinlilər tərəfindən bütpərəst tanrı Daqonun şərəfinə təşkil edilən şənlik zamanı bayrama gətirilən Samsonun əvvəlki gücü qayıdır. O, əlləri ilə məbədin sütunlarını dağıdır və fələstinlilər bu dağıntıların altında qalırlar. Onlarla birlikdə Samson da ölür, lakin onun ölümü kölələik vəziyyətində yaşayan İsrail xalqına azadlıq gətirir.

İngilis şairi Con Miltonun “Döyüşçü-Samson” faciəsi Hendelin oratoriyasının əsasını təşkil edir. “Samson”u əsaslı olaraq musiqili dram, dram-konsert adlandırmaq olar. İştirakçıların hər biri fərdi musiqi xüsusiyyətinə malikdir. Oratoriyanın musiqisi iki düşmən qüvvənin – israillilərin və fələstinlilərin müqaviməti üzərində qurulub: bir tərəfdən Samson, atası Mano və dostu Mixa, digər tərəfdən onun həyat yoldaşı Dalila, fələstinli Harafa.

Oratoriya 3 hissədən ibarətdir. *I hissədə* Samsonun fələstinlilərin əsirliyində olduğunu görürük. Burada iki düşmənçilik edən düşərgə – qalib gəlmiş fələstinlilər və kölələikdən yorulmuş israil xalqı göstərilir. Burada, Samson “Əbədi gecə” kiçik ariyasında qandallanmış, kor, tənha vəziyyətdə öz dərdini danışır.

***Samsonun ariyası (№ 4):***
[https://www.youtube.com/watch?v=xqQnD-lfZuI](https://www.youtube.com/watch?v=xqQnD-lfZuI)




*II hissəyə* yeni obrazlar daxil edilir. Bunlar Samsonun arvadı Dalila, komik obraz – fələstinli döyüşçü Harafadır. Sonuncunun daxil olması baş qəhrəmanın faciəsini daha da artırır. Dalilanın ariyasının musiqisi zərif, valehedicidir.

Oratoriyanın üçüncü hissəsində Samson düşmənlərinin tələbi ilə fələstinlilərin tanrısı Daqonun şərəfinə keçirilən bayram ərəfəsində məbəddə olmalıdır. Fələstinlilər ölkəsindəki əyləncə və bayram mənzərəsi Dalilanın ariyasıyla açılır. Bu dəfə Dalila döyüşkən qəbilənin qızı kimi, qələbəni tərənnüm edən, düşmən-qəhrəmanının alçaldılmasına sevinərək yeni bir obrazda görünür – “Düşmən tanrımız Daqon tərəfindən öldürüldü, qəhrəman Samson ona məğlub oldu”.

***Dalilanın ariyası (№26):***
[https://www.youtube.com/watch?v=lUzlrQhTmW8](https://www.youtube.com/watch?v=lUzlrQhTmW8)




Oratoriyanın son səhnəsi qəhrəmanın dəfn mərasimi, eyni zamanda təntənəli sonluqla bitir. Matəm marşı, bu janr üçün səciyyəvi olmayan major tonallığında səslənir ki, bu da öz növbəsində musiqinin parlaq qəhrəmanlıq xüsusiyyətlərini göstərir.

***Matəm marşı (№33):***
[https://mp3iq.com/m/2075163-g.f.gendel.-oratoriya-samson/152830037-traurnyj-marsh-84-s-dur/](https://mp3iq.com/m/2075163-g.f.gendel.-oratoriya-samson/152830037-traurnyj-marsh-84-s-dur/)




Samsonun ölümü xalqa azadlıq bəxş edir. Marşın qəhrəmani xüsusiyyətləri ondan sonra səslənən xorda öz əksini taparaq, qələbə və azadlıq sevincini tərənnüm edir.

***Mövzuya aid suallar:***

1.G.F.Hendelin yaradıcılığında daha çox hansı musiqi janrlarına rast gəlinir?
2. G.F.Hendel neçə yaşında Almaniyanı həmişəlik tərk etmişdir?
3. Oratoriya nədir?
4. “Samson” oratoriyasının əsasını hansı əfsanə təşkil edir?
5. “Samson” oratoriyasını yazarkən, Hendel hansı şairin mətninə müraciət etmişdir?

*6-cı dərs.* **Kristof Villibald fon Qlyuk (1714 – 1787). Həyat və yaradıcılıq yolu. Opera islahatı.**

**K.V.Qlyuk** – alman bəstəkarı, musiqi klassisizminin ən böyük nümayəndələrindən biri olmuşdur. Qlyuk öz yaradıcılığında daha çox opera janrına üstünlük verirdi. Onun çoxsaylı operaları arasında əsasən “Orfey və Evridika”, “Alsesta”, “İfigeniya Avliddə”, “İfigeniya Tavriddə” musiqi əsərləri məşhurluqları ilə seçilirlər. Qlyuk həmçinin orkestr üçün bir sıra əsərlər – uvertüralar, fleyta və orkestr üçün konsert, 4 balet yazmışdır.

Qlyukun adı XVIII əsrin ikinci yarısında italyan opera-seriasında və fransız lirik faciəsində aparılan islahatlarla bağlıdır. İslahatçı-Qlyukun ideyaları opera teatrının gələcək inkişafını müəyyənləşdirmiş və təkcə müasirlərinə deyil, həm də gələcək musiqiçi nəslə – A.Salyeri, L.Kerubini, L.V.Bethoven, F.Şubert, H.Berlioz, R.Vaqnerə böyük təsir göstərmişdir.

Kristof Villibald fon Qlyuk Erasbax şəhərində meşəbəyi ailəsində anadan olmuşdur. Kristof kiçik yaşlarından musiqiyə böyük maraq göstərirdi, eyni zamanda gimnaziyada ilk təhsilini almışdı. Atası oğlunun musiqi ilə məşğul olmasına qarşı çıxırdı və musiqini ciddi bir sənət kimi qəbul etmirdi. Məhz bu səbəbdən Kristof 17 yaşında evi tərk edərək Praqaya üz tutur və Praqa Universitetinin fəlsəfə fakültəsinə daxil olur. Universitet təhsili ilə yanaşı o, musiqi ilə də məşğul olur, violin və violonçel ifaçısı kimi çıxış edir, həm də gözəl səsə malik olduğuna görə kilsə xorunda oxuyur.

Qlyuk 22 yaşında Milana köçür və burada opera janrının ən görkəmli sənətkarlarının əsərləri ilə tanış olma imkanını qazanır. Bundan əlavə, Covanni Sammartininin rəhbərliyi altında bəstəkarlığı öyrənir və "sadə, lakin özünə əmin homofonik yazı" üslubuna malik olur. 1741-ci ildə Milanda Qlyukun ilk "Artakserks"[12] operasının uğurlu premyerası baş tutur.

1754-cü ildə Qlyuk Vyanada saray operasına dirijor və bəstəkar kimi təyin olunur. Tədricən o, yeni opera üslubu yaratmağa çalışır, yəni operanı əsl musiqili dram əsərinə çevirmək istəyir. Qlyuk şair və dramaturq Ranyeri de Kaltsabidji ilə yaxından əməkdaşlıq ediridi. Onların birlikdə ərsəyə gətirdikləri, Vyanada tamaşaya qoyulan “Orfey və Evridika” operası, həmçinin “Alsesta”[13] qəhrəmanlıq operası olmuşdur.

Paris dövrü (1774 – 1779) Qlyukun yaradıcılığında ən əlamətdar dövr sayılır. Kral Musiqi Akademiyasında bəstəkarın Yevripidin faciəsi əsasında yazıdığı “İfigeniya Tavriddə” operasının premyerası zamanı “qlyukistlər”lə[14] “piççinistlər”[15] arasında mübarizə Qlyukun qələbəsi ilə başa çatmışdır. Piççini özü Qlyukun "musiqi inqilabını" qəbul edirdi. Parisdə Qlyuk “İfigeniya Avliddə” operasını yazıb uğurla səhnələşdirir, eləcə də yeni nəşrdə “Orfey və Evridika”nı və digər operalarını tamaşaçıların ixtiyarına buraxır. 1779-cu ildə Qlyukun son – "Exo və Nərgiz" operasının premyerası olmuşdur. Elə həmin ildə Qlyuk Vyanaya qayıdır və 1787-ci ildə ağır xəstəlikdən sonra vəfat edir.

**Qlyukun opera islahatı.** Artıq Avropanın müxtəlif opera teatrlarında böyük təcrübəyə malik yetkin opera ustası olan Qlyuk opera janrında islahatlar aparmağa başladı. Qlyuk "Alsesta" və "Paris və Helena" operalarına yazdığı ön sözlərdə islahat prinsiplərini açıqlamışdır.

Qlyuk ilk növbədə opera librettosu ilə bağlı dəyişikliklər etmişdir. Opera mətni hiss və düşüncələri dərindən təcəssüm etdirməli, maraqlı səhnə hadisələrini özündə əks etdirməli idi. Qlyuk operanın librettosundan danışarkən qeyd edirdi: “İşə başlamazdan əvvəl musiqiçi olduğumu unutmağa çalışıram və daha çox şair və yaxud, rəssam kimi düşünürəm”.

Eyni zamanda, Qlyuk operaların melodik üslubunu yeniləmişdir. O, əsasən seria-operalarının müəyyən olunmuş ariya növlərinə əsaslanırdı. Bəzəklərdən azad olunmuş bu melodiyalar daha dolğun intonasiya ilə səslənirdi. Bəstəkar reçitativlər üzərində çox çalışırdı. Belə ki, o, reçitativləri parlaq nitq ifadəliliyi ilə zənginləşdirmiş və ariyalara daha da yaxınlaşdırmışdır. Uvertüra təkcə operaya musiqili giriş kimi deyil, daha mühüm əhəmiyyət daşıyaraq operanın qısa məzmununu orkestr vasitəsilə açıqlayır. Xor və balet səhnələri operanın inkişafında aparıcı rol oynayır.

Qlyukun islahatçı operalarının əsas mövzusu qəhrəmanlıq-faciəvi xarakter daşıyan qədim süjetlərlə bağlıdır.

---

[12] Artakserks – əhəmənilər sülaləsinin 5-ci şahı.
[13] Alsesta –yunan mifologiyasına görə çar qızı.
[14] Qlyukistlər – opera islahatının tərəfdarları.
[15] Piççinistlər – köhnə italyan opera üslubunun tərəfdarları.

***Mövzuya aid suallar:***

1. K.Qlyukun yaradıcılığında hansı musiqi janrı üstünlük təşkil edirdi?
2. Opera janrı ilə bağlı axtarışlarında Qlyukun yaxın məsləhətçisi kim olmuşdur?
3. O dövrdə italyan və fransız operasının tərəfdarları necə adlandırılırdı?
4. K.Qlyukun opera islahatının əsas prinsipi nədən ibarət idi?
5. Qlyuk hansı opera ilə islahatının əsasını qoymuşdur?

*7-ci dərs.* **K.V.Qlyuk. "Orfey və Evridika" operası.**

Qlyukun "Orfey və Evridika" operası 1762-ci ildə yazılmışdır. Operanın süjet əsasını müğənni "Orfey"dən bəhz olunan qədim əfsanə təşkil edir. Libretto Ranyero da Kaltsabidji tərəfindən yazılmışdır. Bu əfsanə Qlyuk və Kaltsabidjini dərin ideoloji məna – sənətin sehrli gücü düşüncəsi ilə cəlb etmişdir. Müəlliflər finaldan başqa əsas süjet xəttini qoruyub saxlamışlar. Opera nikbin sonluqla bitir. Operanın bütün inkişafı iki emosional tərəfin qarşıdurmasına əsaslanır: insanın kədəri və iztirabı, digər tərəfdən isə taleyin qəddarlığı və ölüm.

Qlyuk burada əsasən mahnıvari melodiyalara üstünlük verir. Operadakı ariyalar lakonikdir. Reçitativlər melodikləşdirilərək ariya üslubuna yaxınlaşmışdır, eyni zamanda ifadəli deklamasiyaya da malik idilər.

*İştirak edənlər:*
Orfey, müğənni (yüksək kişi səsi: kontralto və ya tenor),
Evridika, onun həyat yoldaşı (soprano),
Amur, sevgi tanrısı (soprano),
Səadət kölgəsi (soprano).

I pərdə dörd hissədən ibarətdir. İlk səhnədə çobanlar ilan sancmasından vəfat etmiş Evridikanın ölümünə təəssüflənirlər. Qüssəli xor musiqisi (c moll) *lamento*[16] üslublu ariyaya əsaslanır. Musiqidə eşidilən, eyni ölçüdə təkrarlanan ritm matəm yürüşünü xatırladır.

***Birinci pərdə. Çobanların xoru "Əsən yel mərsinləri yırğalayır"***
[https://www.youtube.com/watch?v=E4QkcjIl660](https://www.youtube.com/watch?v=E4QkcjIl660) (səslənmənin vaxtı – 4.00)




İkinci səhnə Orfey obrazına həsr olunub. Səhnə Orfeyin iztirablarını səciyyələndirən "Sən hardasan, sevgilim?" ariyasıyla başlayır. Ariyanın kədərli olmasına baxmayaraq, burada eyni zamanda sevgi dolu hisslərdən doğan şəffaflıq da duyulur.

[16] Lamento – qəmgin və kədərli xarakterə malik musiqi əsəridir.

***Orfeyin ariozosu “Sən hardasan, sevgilim?”:***
https://www.youtube.com/watch?v=E4QkcjII660 (səslənmənin vaxtı – 11:05)




Bunun ardınca Amurun iki zərif ariyası səslənir. Amur menuet ritmində səslənən “Göylərin hökmünü icra etməyə tələs” ikinci ariyasında Zevsin istəyini elan edir. Belə ki, Orfeyə yeraltı dünyaya enməsinə icazə verilir və əgər onun oxuması, lirada ifası ruhların qəlbinə toxunarsa, o zaman Evridika ilə qayıdacaq. Ancaq bir şərtlə ki, Orfey Yerə qayıdana qədər sevgilisinə baxmamalıdır.

Sonuncu dördüncü səhnə – kölgələr səltənətinə getməyə hazır olduğunu ifadə edən Orfeyin pafoslu reçitatividir. Orfeyin reçitativindən sonra orkestrdə küləyin uğultusunu, ildırım gurultusunu təsvir edən musiqi səslənir. Bu, təkcə təbiətdə deyil, Orfeyin qəlbində də şiddətlənən bir fırtınadır.

İkinci pərdənin birinci şəkli – operanın ən parlaq və novator səhnələrindən biridir. Səhnə hərəkəti Aid qapılarının qarşısında baş verir. Bütün səhnə Orfey və ruhların dialoqu üzərində qurulub. Kiçik orkestrdə səslənən musiqili giriş Orfeyin yaxınlaşdığından xəbər verir. Girişdən sonra

***İkinci pərdə. Giriş:***
https://www.youtube.com/watch?v=E4QkcjII660 (səslənmənin vaxtı – 24.30)




“Kimdir bu cəsur ürəkli?” adlı xor səslənir. Xromatik gedişlərlə zəngin xor melodiyası həyəcanlı və tutqun xarakterlidir. Növbəti fraqmentdə ruhların rəqsini səciyyələndirən sadə, qammavari və uçuşan musiqi eşidilir. Rəqsdən sonra yenidən səslənən ruhların xoru trombonların iştirakı ilə (ilk dəfə olaraq orkestrə daxil edilmişdir) unison şəklində verilir. Qorxunc təsəvvür yaradan harmoniyalarla yanaşı orkestrdə Serberin[17] hürməsini təqlid edən *qlissando* səslənir.

[17] Serber – ölülər səltənətinin giriş qapısını qoruyan üçbaşlı it.

***Ruhların xor və rəqsləri:***
https://www.youtube.com/watch?v=cqtS5HYwwgs




Ruhların musiqisi getdikçə öz kəskin xarakterini itirir, temp zəyifləyir, unison gediş akkordlarla əvəz olunur. Orfey səsi ilə ruhların qəlbinə yol taparaq, onları sakitləşdirməyə müvəffəq olur və ruhlar da öz növbəsində Orfeyi kölgələr səltənətinə yola salırlar.

II pərdənin ikinci yarısı aydın və şəffaflığı ilə seçilir. Ruhlar gözdən itir, əvəzində isə günahsız və xoşbəxt ruhların məskəni olan Eliziumun məftunedici mənzərəsi (2 – 4-cü səhnələr) görünür. Burada musiqi yeraltı dünyanın sıxıntılı ab-havasını təsvir edir. Məhz bu pərdədə məşhur fleytanın solosu səslənir. Bu nömrə Orfeyin sevgilisini – Evridikanı səciyyələndirir.

***Fleytanın melodiyası:***
**https://www.youtube.com/watch?v=puTg2KpfAbs**




Üçüncü pərdə iki təzadlı bölməyə bölünür. Birinci bölmədə Orfeyin qəlbində sevgi və Amura verdiyi vədi arasında mübarizə gedir. Evridika isə Orfeyin bu soyuqqanlılığını qəbul edə bilmir və bu səbəbdən vəfat edir.

***Üçüncü pərdə. Evridikanın ariyası:***
https://www.youtube.com/watch?v=wtjerkbTWDM




Orfeyin dərin və zərif sevgi duyğusu onun “Mən Evridikanı itirdim” məşhur ariyasında öz əksini tapmışdır.

***Orfeyin ariyası "Mən Evridikanı itirdim":***
[https://www.youtube.com/watch?v=1MoVb5IRhKI](https://www.youtube.com/watch?v=1MoVb5IRhKI)




Üçüncü pərdənin son ikinci hissəsi bayram əhval-ruhiyyəli epiloqdur. Amur öz məbədində Evridikanı dirildərək Orfeyi, onun sonsuz sədaqəti üçün mükafatlandırmışdır.

***Mövzuya aid suallar:***

1. "Orfey və Evridika" operası hansı süjet əsasında yazılmışdır?
2. Opera librettosu ədəbi mənbədən nə ilə fərqlənir?
3. Opera quruluşunun xüsusiyyətləri hansılardır?
4. *Lamento* nədir?
5. Operanın hansı instrumental nömrəsi geniş məşhurluq qazanmışdır?

*8-ci dərs:* **Vyana klassik məktəbi.**

XVIII əsrin sonu və XIX əsrin əvvəlləri Qərbi Avropanın musiqi mədəniyyəti tarixində ən mühüm dövrlərdən sayılır. Həmin dövr Vyana çoxmillətli Habsburqlar imperiyasının paytaxtı idi. Həmin imperiyanın tərkibinə avstriyalılar, macarlar, həmçinin slavyan xalqları (çexlər, serblər, xorvatlar, polyaklar və b.) daxil idi. Əlbəttə ki, müxtəlif ölkələrin musiqi sənəti Avropanın mədəniyyət mərkəzi sayılan Vyananın musiqi folkloruna təsirsiz ötüşməmişdir.

Bu dövrdə böyük həcmli musiqi əsərlərinin dini məzmundan kübar məzmuna keçidi, eləcə də klassik musiqinin yaranması və inkişafı baş verir. Yeni janr və formalar yaranır. Əvvəllər oratoriya, messa və opera aparıcı monumental janr kimi dəyərləndirilirdisə, bu dövrdə opera ilə yanaşı simfoniya da mühüm yerlərdən birini tutur. Polifonik yazı üslubu homofon-harmonik yazı üslubu ilə əvəzlənir, lakin eyni zamanda böyük həcmli instrumental əsərlərdə polifonik musiqiyə rast gəlmək olur.

Vyana klassik məktəbinin nümayəndələri Yozef Haydn, Volfqanq Amadey Motsart və Lyudviq Van Bethovendir.

Vyana klassiklərinin yaradıcılığında simfoniya, sonata, konsert və kamera ansamblı kimi aparıcı instrumental janrlar, həmçinin sonata-simfonik silsiləsi öz inkişaf və təşəkkülünü tamamlamışdır.

Klassik simfonik orkestrin formalaşması da Vyana klassik məktəbinin çiçəklənmə dövrünə təsadüf etmişdir. Bu dövrdə fortepiano triosu, simli kvartet və digər klassik tipli kamera ansamblları yaranmışdır. Solo alətlər üçün yazılmış musiqi arasında fortepiano musiqisi daha çox seçilirdi.

Vyana klassik məktəbi nümayəndələrinin hər biri fərdi xüsusiyyətə malik idi. Haydn və Bethoven instrumental janra üstünlük verirdi, Motsart isə instrumental əsərlərlə yanaşı opera janrında da öz dahiliyini göstərə bilmişdir. Haydn daha çox xalq obrazları, yumor və zarafatdan istifadə etmiş, Bethovenin yaradıcılığında qəhrəmanlıq mövzusu aparıcı rol oynamış, Motsart isə öz əsərlərində lirik düşüncə və həyəcanın müxtəlif çalarlarını əks etdirmişdir.

***Mövzu ilə bağlı suallar:***

1. Vyana klassik məktəbi hansı yeniliklərlə səciyyələnir?
2. Vyana klassik məktəbinin nümayəndələri hansı bəstəkarlardır?
3. Vyana klassiklərinin yaradıcılığında hansı janrlar formalaşmışdır?

*9-cu dərs:* **Frans Yozef Haydn (1732 – 1809). Həyat və yaradıcılıq yolu.**

Haydn Avstriya bəstəkarı, Vyana klassik məktəbinin nümayəndəsidir, simfoniya və simli kvartet musiqi janrlarının banilərindən biridir. Bəstəkar 24 opera, 104 simfoniya, 83 simli kvartet, 50-dən çox fortepiano (klavir) sonatası, 3 oratoriya ("Dünyanın yaranması", "İlin fəsilləri" və "Xilaskarın çarmıxdakı yeddi sözü"), 14 messa, orkestr və müxtəlif alətlər üçün uvertüralar, marşlar, rəqslər, divertismentlər (bir neçə kiçik pyeslərdən ibarət musiqi kompozisiyaları), klavir və digər alətlər üçün konsertlər və bir çox başqa əsərlər yazmışdır.

**Frans Yozef Haydn** 1732-ci ildə Avstriyanın Rorau kəndində anadan olmuşdur. Balaca Yozef əla eşitmə qabiliyyətinə, yaddaş və ritm hissinə malik idi. Onun gur "gümüşü" səsi hər kəsi heyran edirdi. Kiçik yaşlarından o, kilsə xoruna, sonra isə Vyanadakı Müqəddəs Stefanın baş kilsəsinin kapellasına[18] daxil olur. Ona çətin solo partiyalar həvalə olunurdu. Burada o, violin və klavikordda ifa edirdi. Çox keçmir ki, Haydnın səsi korlanmağa başlayır və o, artıq xorda oxuya bilmir. Bu səbəbdən onu işdən çıxardırlar. Bundan sonra gənc Haydnın çətin, məşəqqətli günləri və ən əsası isə davamlı zəhmət tələb edən müstəqil həyat yolu başlayır. Beləliklə, Haydn vokaldan dərs deyir, həmçinin sifarişlə ilk bəstələrinin bir neçəsini yazır. Haydn anlayırdı, bəstəkar olmaq üçün çox oxumaq lazımdır. O, müxtəlif musiqişünasların nəzəri əsərlərini öyrənməyə başlayır, eyni zamanda klavesin üçün sonatalar bəstələyir. Onun ilk irihəcmli əsərləri – F-dur və G-dur messaları olmuşdur. 50-ci illərdə Haydn bir sıra əsər yazmışdır: "Ağsaq şeytan" (1752), divertisment və serenadalar, baron Fürnberqin musiqi dərnəyi üçün kvartetlər, 10-a yaxın kvartet və 1 № li simfoniya. Məhz bu əsərlər onun bəstəkar kimi tanınmağına səbəb olmuşdur.

Xeyriyyəçi K.Fürnberq Haydnı çex qrafı Ferdinand Mortsin ilə tanış edir. O, gənc Yozefi xor rəhbəri və bəstəkar kimi işə gəbul edir. Lakin bu iş bəstəkarın şəxsi həyatında baş vermiş dəyişikliklər səbəbindən qısamüddətli olur.

30 yaşında Haydn artıq Vyanada kifayət qədər tanınmış bəstəkara çevrilir. O, incəsənətin güclü himayədarı, nüfuzlu macar maqnatı – knyaz Paul Anton Esterhazidən xor kollektivinə rəhbərlik etmək üçün dəvət alır. Haydn 30 ilini Esterhazi malikanəsində keçirdir. Burada o, opera və simfoniyalar ("Ayı", "Uşaq", "Məktəb müəllimi") yazır. Haydnın istedadı illər

[18] Kapella – müğənni və musiqiçilərdən ibarət kollektiv, xor.

keçdikcə daha da mükəmməlləşirdi. Artıq o, İngiltərə, Rusiya, Fransa kimi ölkələrdə tanınırdı. Haydnın Parisdə ifa olunan altı simfoniyası "Paris simfoniyaları" adı almışdır.

Bəstəkarın, knyazın razılığı olmadan malikanədən kənara çıxmağa, əsərlərini çap etməyə ixtiyarı yox idi. Esterhazinin malikanəsində xidmət etmək, ondan tam asılılıq vəziyyətində olmaq Haydnı çox sarsıdırdı. Məhz bu dövrdə o, dərin dramatik əhval-ruhiyyəsi ilə seçilən əsərlər yazır ("Vida simfoniyası"[19], e-moll sonatası). Lakin bu gərgin vəziyyətə baxmayaraq, bir dəfə Vyanaya getməyə imkan tapmış və burada sevdiyi bəstəkar Motsartla görüşə bilmişdir. Motsart böyük məmnuniyyətlə Haydnın yazdığı kvartetləri ifa edirdi.

Qoca knyaz Esterhazi vəfat etdikdən sonra oğlu onu əvəz edir. Musiqiyə biganə yanaşan yeni knyaz kapellanı ləğv edir. Nəhayət ki, Haydn azadlığa qovuşur və konsert proqramı ilə İngiltərəyə yollanır. Haydn konsert çıxışları ilə böyük uğur qazanır. Bu illərdə o, məşhur "12 London simfoniyası"nı, "Orfey və Evridika" operasını yazır. Onun istedadı ən yüksək zirvəyə çatır.

G.F.Hendelin musiqisindən təsirlənən Haydn Vyanaya qayıdaraq son irihəcmli əsərlərini – "Dünyanın yaradılması" və "İlin fəsilləri" iki oratoriyasını bəstələyir. Haydn 77 yaşında Vyanada vəfat etmişdir.

***Mövzuya aid suallar:***

1. Y.Haydn yaradıcılığında hansı janrlara müraciət etmişdir?
2. Y.Haydn "Vida simfoniyası"nı yaradıcılığının hansı dövründə yazmışdır? Yaranma tarixi.
3. Y.Haydn knyaz Esterhazinin kapellasına neçə il rəhbərlik etmişdir?
4. Kapella nədir?

*10-cu dərs:* **F.Y.Haydn. Simfonik yaradıcılığı. 103 № li simfoniya**

Haydn 104 simfoniya, həmçinin uvertüralar, marşlar, rəqslər, divertismentlər, orkestr ilə klavir, başqa alətlər üçün konsertlər və bir çox digər orkestr əsərlərinin müəllifidir.

Bəstəkar öz simfoniyalarını 50-ci illərin əvvəli–90-cı illərin ortalarına kimi yazmışdır. Həmin simfoniyalarda insan həyatına xas olan ciddi, dramatik, lirik-fəlsəfi, həmçinin zarafatyana tərəflər əks olunmuşdur. Öz simfoniyalarında (əsasən 2-ci və 4-cü hissələrdə) tez-tez xalq-məişət mövzusuna müraciət edərək, çex, macar, serb folklorunun müxtəlif elementlərindən istifadə etmişdir. Artıq "Paris" və "London" simfoniyalarında bu janrın klassik qanunauyğunluqları, səciyyəvi mövzu və inkişaf üsulları təsdiqlənmişdir.

Bəstəkarın bütün simfoniyaları, demək olar ki proqramsızdır, yəni müəyyən bir süjetə malik deyil. İstisna olaraq, bəstəkarın adlandırdığı simfoniyalar "Səhər", "Günorta", və "Axşam" (№ 6, 7, 8) əsərləri olmuşdur. Haydnın simfoniyalarına verilən və təcrübədə təsbit edilən bütün digər adlar dinləyicilərə məxsusdur. Onlardan bəziləri əsərin ümumi xarakterini ifadə edir ("Vida" – № 45), digərləri orkestrləşmənin özəlliklərini əks etdirir ("Şeypur siqnalı ilə" – № 31, "Litavrların tremolosu ilə" – № 103) və ya hansısa yaddaqalan obrazı vurğulayan ("Ayı" – № 82, "Cücə" – № 83, "Saat" – № 101). Bəzən simfoniyaların adları onların yaranma və ya ifa

[19] "Vida simfoniyası"nın yaranma tarixinin bir neçə rəvayəti vardır. Bəzi rəvayətlərə görə, bu simfoniyanın yaranması knyazın malikanəsindəki orkestr musiqiçilərinin çətin iş şəraitindən narazılığı ilə bağlıdır, çünki knyaz Esterhazi orkestrin musiqiçilərini gec saatlara qədər saxlayırdı. Haydn bu narazılığı məhz bu simfoniyada ifadə etmişdir. Belə ki, simfoniyanın final hissəsinin ifası zamanı orkestr üzvləri bir-birinin ardınca püpitra qoyulmuş şamları söndürərək səhnəni tərk edirlər. Əsərin ikinci adı – "Şam işığında simfoniya" məhz buradan gəlir.

şəraiti ilə əlaqələndirilir ("Oksford" – № 92, 80-ci illərin altı "Paris" simfoniyası). Lakin bəstəkar heç vaxt öz instrumental musiqisinin obrazlı məzmununu şərh etməyib.

Haydn simfonizminin ən böyük nailiyyəti onun iki qastrol səfəri zamanı İngiltərədə yazılmış 12 "London" simfoniyası hesab olunur. Məhz, London simfoniyalarında bəstəkar öz müasirlərindən fərqli, özünəməxsus sabit simfoniya növünü yaratmışdır. Onun səciyyəvi xüsusiyyətləri major tonallıqlarının üstünlüyü[20] və xalq-məişət mövzularına istinad edilməsindən ibarət idi.

**Sonata-simfonik silsiləsi.** Məhz, Haydnın yaradıcılığında sonata-simfonik silsiləsi (simfoniya, konsert, sonata və s.) formalaşmışdır ki, burada əsərin quruluşunda hissələrdən biri mütləq şəkildə sonata formasında (əsasən I hissə) verilməli idi. Vyana klassiklərinin musiqisində müəyyən qanunauyğunluqlar təsdiq olunmuşdur:

***Üçhissəli silsilə***

• sonatada;
• orkestr ilə solist (solistlər) üçün konsertdə;
• fortepiano ilə kamera musiqisində.

***Dördhissəli silsilə***

• simfoniyada;
• fortepianonun iştirakı olmadan kamera musiqisində (ilk növbədə kvartet, kvintetlərdə və s.).

**Hissələr arasında sürət və janr nisbəti** kifayət qədər sərbəst olsada, yavaş və hərəkətli hissələr hər zaman ardıcıl olaraq bir-birini əvəz edir. Klassik dördhissəli silsilə aşağıdakı janr xüsusiyyətlərini özündə əks etdirir:

1. Gərgin-hərəkətli (sonata formasında yazılmış I hissə)
2. Lirik (II yavaş hissə)
3. Rəqsvari (menuet və ya skertso)
4. Ümumiləşdirici məişət xarakterli (hərəkətli final).

Üçhissəli silsilədə, kənar hissələrin funksiyaları dəyişməz olduğu halda, orta hissə adətən asta tempdə, nadir hallarda menuet və ya skertso olur.

Dördhissəli silsilə tonal planı: I, III, IV hissələr – əsas tonallıqda; II hissə – yeni tonallıqda (adətən subdominanta). Üçhissəli silsilə: I, III hissələr – əsas tonallıqda; II hissə – yeni tonallıqda (adətən subdominanta).

**Hissələrin quruluşu.**

I hissə – *Sonata allegro* forması

II hissə – Mürəkkəb üçhissəli, variasiyalar, ikili variasiyalar.

III hissə – Mürəkkəb üçhissəli forma (orta hissəsi – *Trio*)

IV hissə – *Sonata allegro* forması, rondo-sonata.

***Sonata allegro* forması (sonata forması)** üç bölmədən ibarətdir: **ekspozisiya, işlənmə** və **repriz**. Ekspozisiyada əsas və köməkçi mövzular bir-biri ilə təzad təşkil edir. Onlar bağlayıcı mövzu ilə birləşdirilir, ekspozisiyanı tamamlayıcı mövzu yekunlaşdırır. Əsas mövzu əsas tonallıqda səslənir, əgər əsas mövzu minor tonallığındadırsa köməkçi mövzu paralel majorda, əgər əsas mövzu major tonallığında yazılıbsa, köməkçi mövzu dominanta tonallığında səslənir. Ekspozisiya köməkçi mövzunun tonallığı ilə bitir. İşlənmədə mövzuların hamısı və ya bəziləri işlənilir. Reprizdə ekspozisiya bəzi dəyişikliklərlə təkrarlanır. Mütləq şərtlərdən biri isə reprizdə köməkçi mövzu tonallığının (əsas tonallıqda) dəyişdirilməsidir.

[20] "London" simfoniyaları arasında yalnız biri minordadır – № 95 c-moll, lakin onun da finalı C-dur tonallığında yazılmışdır.

**“Litavraların tremolosu ilə” adlı 103 №-li simfoniya** (Es-dur) 12 “London simfoniyalar”dan biridir. Simfoniya litavraların tremolosu ilə başlayır, məhz bu səbəbdən əsər belə adlandırılıb. Dördhissəli simfoniyanın xarakteri işıqlı, şəndir.

*Birinci hissə* (*Adagio*, *Allegro con spirito*, *sonata allegrosu, Es-dur*) asta girişlə başlayır. Litavraların tremolosundan sonra şən və hərəkətli *allegroya* zidd olan aşağı registrdə sirli bir mövzu səslənir.

***Birinci hissə. Giriş:***

https://www.youtube.com/watch?v=DY0y1f1tRGw




Əsas və köməkçi mövzular (B-dur), xarakter baxımından fərqli olsalar da, bir-biri ilə ziddiyyət təşkil etmirlər.

***Əsas mövzu:***

https://www.youtube.com/watch?v=RLd8a0d8eGM




***Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=mFdCSTne7CU



Onların ekspozisiyada təqdim olunması, daha sonra işlənmədə inkişafı və reprizdə təkrarlanması I hissənin məzmununu təşkil edir.

*İkinci hissə* (*Andante, c-moll*) sakit və rəvan ab-hava yaradır. Burada iki mövzu üzərində qurulmuş variasiyalar (yəni ikili variasiyalardır) səslənir. Bunlardan birincisi rəvayət xarakterli xorvat xalq mövzusudur,

***İkinci hissə. Birinci mövzu:***

https://www.youtube.com/watch?v=M-5QlLu_5Qg




ikinci mövzu isə şən, gümrah xarakterli marşdır (C-dur).

***İkinci mövzu:***

https://www.youtube.com/watch?v=M-5QlLu_5Qg (səslənmənin vaxtı – 2:32)



*Üçüncü hissə* (*Menuetto, Es-dur, mürəkkəb üçhissəli forma*) – Menuetdir. Burada kəskin vurğular, sinkopalar və qəfil dayanmalarla ifadə olunan kobud kəndli rəqsidir.

***Menuet:***

https://www.youtube.com/watch?v=-uHRDRrcOkc




Simlilərin ifasında sakit, məlahətli və rəvan səslənən Trio "*arpegio*"lu keçidlər üzərində qurulub.

***Trio:***

https://www.youtube.com/watch?v=mejxbvvSDBM (səslənmənin vaxtı – 2:41)



*Finalda (Allegro con spirito, Es-dur, rondo-sonata)* eyni vaxtda iki mövzu təqdim olunur: valtornaların "qızıl gedişi"nə[21] əsaslanan sərt mövzu

[21] "Valtornaların qızıl gedişi" – üç harmonik intervalın ardıcıllığıdır: kiçik və ya böyük seksta, xalis kvinta və kiçik və ya böyük tersiya.

***Final:***

https://www.youtube.com/watch?v=3tI9xw0_rKM




və violinlərin ifasında səslənən intonasiya, xarakter baxımından ona yaxın olan digər mövzularla növbələşən rəqsvari mövzu.

Haydn sonata *allegrosu* və rondo formasının prinsiplərini məharətlə birləşdirərək xalq şənliyinin mənzərəsini yarada bilmişdir.

***Mövzu ilə bağlı suallar:***

1. Y.Haydnın yetkin dövr simfonizminin səciyyəvi xüsusiyyətləri hansılardır?
2. Y.Haydnın simfoniyaları proqramlıdırmı?
3. Sonata-simfonik silsiləsi hansı xüsusiyyətlərə malikdir?
4. Sonata-simfoniya silsiləsində hissələrin sürət nisbəti necədir?
5. Sonata-simfoniya silsiləsində hissələrin tonal nisbəti necədir?
6. Sonata-simfoniya silsiləsinin hissələrində ən çox hansı formalardan istifadə olunur?
7. Y.Haydnın 103 №-li simfoniyası niyə "Litavraların tremolosu ilə simfoniya" adlanır?
8. Y.Haydn 103 №-li simfoniyasında xalq melodiyalarından istifadə etmişdirmi?

*11-ci dərs:* **Y.Haydn. Klavir yaradıcılığı. D-dur və e-moll sonataları.**

Klavir musiqisi (sonatalar, rondolar, variasiyalar, konsertlər) Haydnın yaradıcılıq irsinin çox mühüm hissəsidir. O, 50-dən çox fortepiano sonatası və 20 konsert müəllifidir. Haydnın sonataları, bir qayda olaraq, üçhissəli silsilədir: I hissə – sonata *allegrosu*, II hissə – ağır templi, III hissə – sürətli final (adətən, rondo formasındadır). Eyni zamanda, Haydnın yaradıcılığında dördhissəli və hətta, ikihissəli sonata silsilələri də var.

**Sonata e-moll** (op. 42) Haydnın məşhur lirik əsərlərindən biridir.

Sonata *allegro* formasında yazılmış *birinci hissə (Presto)* çox sürətli tempdə səslənir. Ekspozisiyada yuxarıya doğru istiqamətlənən əsas mövzunun fasiləli melodiyası həyəcanlı anlar yaradır.

***Əsas mövzu:***

https://www.youtube.com/watch?v=BKedvZ-uaiA



Köməkçi mövzu xarakter baxımından daha yumşaqdır, major ladı (G-dur) isə onun səslənməsinə işıqlı çalarlar gətirir.

***Köməkçi mövzu:***

[https://www.youtube.com/watch?v=ni9oSt_Bp7Y](https://www.youtube.com/watch?v=ni9oSt_Bp7Y) (səslənmənin vaxtı – 0:38)



İşlənmə bölməsi əsas, bağlayıcı və köməkçi mövzularını minor ladında inkişaf etdirir. I hissənin sonunda kiçik bir koda səslənir.

*İkinci hissə* (*Adagio*, G-dur) sonata formasında yazılmışdır. Xarakter sakit və düşüncəlidir. Zərif əsas mövzu

***İkinci hissə.Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=8OZA6SiaUok](https://www.youtube.com/watch?v=8OZA6SiaUok)




daha hərəkətli köməkçi mövzu ilə əvəz olunur. Mövzular arasında ziddiyət yoxdur.





Gözlənilmədən reprizin sonunda modulyasiya yaranır və mi minorun dominantasında bitir. Sonra isə həmin hissə fasiləsiz (*attacca subito*) III hissəyə keçid alır.

*Üçüncü hissə – Final* (*Molto vivace*, *e-moll*) rondo formasında yazılmışdır. Əsas mövzu – refren – zərif yüngüllüyü və hərəkətli, kəskin, dəqiq ritmi ilə seçilir.

***Final. Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=n95fE8b1nRo](https://www.youtube.com/watch?v=n95fE8b1nRo)



Eyniadlı majorda səslənən B və C epizodları refrenə çox yaxın olan mövzu üzərində qurularaq yalnız lad baxımından bir-birinə ziddiyyət təşkil edirlər.

**Sonata D-dur** (op. 30) həmçinin üçhissəli silsilədir. Sürətli tempdə və şən əhval-ruhiyyədə verilmiş kənar hissələr dramatik xarakterli orta hissəni əhatə edir.

*Birinci hissə* (*Allegro con brio, D-dur*) ənənəvi olaraq sonata *allegro* formasında yazılıb. Əsas mövzu – canlı və coşqundur (D-dur).

***Birinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=ioNlh3klrno




Xarakter baxımından ona yaxın olan köməkçi mövzu (A-dur) daha yumşaq və zərif səslənir.

***Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=0i3Xp6RweF0 (səslənmənin vaxtı – 0:27)



İşlənmə bölməsi kiçikdir, lakin dinamikliyi ilə seçilir. Burada əsas mövzu dramatik yöndə inkişaf edərək gərginliyi artırır. Reprizdə ekspozisiyanın bütün mövzuları əsas tonallıqda təkrarlanır.

*İkinci hissə* (*Largo e sostenuto, d-moll*) həm I hissə, həm də final ilə kəskin ziddiyyət təşkil edir. Musiqi patetik və kədərli intonasiyalarla zəngindir.

***İkinci hissə:***

https://www.youtube.com/watch?v=uXIWW-txF8I (səslənmənin vaxtı – 3:59)



Kiçik ikihissəli forma dominanta funksiyası üzərində qərarlaşır və mi minor sonatasında da olduğu kimi fasiləsiz (*Attacca subito il Finale*) finala keçid alır.

*Üçüncü hissə – Final* (*Presto ma non troppo, D-dur*) bizə yenidən I hissənin şən, həyatsevər əhval-ruhiyyəsini xatırladır. Bu hissə rondo formasında yazılmışdır. Skertsovari mövzu – refren – iki ziddiyyətli epizodla növbələşərək, üç dəfə səslənir.

***Final. Refren:***

https://www.youtube.com/watch?v=gh73Ty3N_co




D-moll tonallığında səslənən 1-ci epizod qətiyyətli, iradəli, 2-si isə (G-dur-da) yüngül, zərif xarakterlə seçilir.

***Mövzuya aid suallar:***

1. Y.Haydnın sonatalarında ənənəvi hissələrin sayı neçədir?
2. *Sonata allegro* forması nədir?
3. E-moll sonatasının I, II, III hissələri hansı tonallıq və quruluşdadır?
4. D-dur sonatasının I, II, III hissələri hansı tonallıq və quruluşdadır?

*12-ci dərs:* **Volfqanq Amadey Motsart (1756 – 1791). Həyat və yaradıcılıq yolu. Klavir yaradıcılığı. Sonata № 11 (A-dur), Fantaziya və sonata № 13 (c-moll).**

**Volfqanq Amadey Motsart** – Avstriya bəstəkarı, kapelmeyster, pianoçu, eyni zamanda violin, klavesin, orqan alətlərinin ifaçısıdır. O, Vyana klassik məktəbinin nümayəndələrindən biri olmuşdur. Motsart 600-dən çox musiqi əsəri yazmışdır ki, onlardan bir çoxu bəstəkarın uşaqlıq illərinə təsadüf edir.

Motsart əsərlərində Avstriya, alman və italyan xalq mahnılarının xüsusiyyətlərini birləşdirərək bənzəri olmayan melodiyalar yaratmışdır. Onun əsərləri özünün poetikliyi və incəliyi ilə seçilir. O, simfoniya və kvartet janrlarını yeniləmiş və zənginləşdirmiş, instrumental (xüsusən də fortepiano) konsertin klassik quruluşunu təsdiqləmiş, həmçinin xor musiqisini (“Rekviyem”) ən yüksək səviyyəyə qaldırmışdır.

Opera janrı Motsart üçün xüsusi əhəmiyyət kəsb edirdi. Qlyukla yanaşı, Motsart da opera janrının islahatçısı kimi qəbul olunur. Əgər Qlyuk musiqini dramatik hərəkətə tabe etməyə çalışırdısa, Motsart üçün, əksinə, musiqi operanın əsasını təşkil edirdi. Onun ən məşhur operaları "Fiqaronun toyu", "Don Juan" və "Sehrli fleyta" olmuşdur.

Motsart simfonik musiqiyə də böyük önəm verirdi. Bəstəkarın ən məşhur simfoniyaları – 39, 40 və 41 № li – son üç simfoniyası olmuşdur. Motsart həmçinin klassik konsert janrının yaradıcılarından biri olmuşdur.

Bəstəkarın kamera-instrumental yaradıcılığı müxtəlif ansambllar (duetlərdən kvintetlərə qədər) və fortepiano üçün əsərlərdən (sonatalar, variasiyalar, fantaziyalar) ibarətdir. Motsart,

fortepiano ilə müqayisədə səsi daha zəif olan klavesin və klavikorddan imtina edir. Onun fortepiano üslubu öz zərifliyi, aydınlığı, melodiya və müşayiətin xırda işləməsi ilə fərqlənir.

Motsart Avstriyanın qərbində yerləşən Zaltsburq şəhərində anadan olub. Onun musiqi istedadı erkən yaşlarında özünü büruzə vermişdir. Motsartın atası savadlı musiqiçi olaraq, violin, orqan alətlərində çalır, orkestrə rəhbərlik edir, musiqi bəstələyir, eyni zamanda da müəllimlik fəaliyyəti ilə məşğul olurdu. Ata oğluna orqan, violin, və klavesində ifa etməyi öyrədirdi. 6 yaşında Motsart atası və bacısı Mariya Anna ilə əvvəlcə Vyanaya, sonra isə Münhenə getmiş və konsert proqramları ilə çıxış etmişdir. Erkən yaşlarından Motsart musiqi bəstələməyə başlayır. Almaniya, İsveçrə, Hollandiya şəhərlərinə səyahət edən Motsartın musiqisi heyrətamiz gözəlliyi ilə dinləyiciləri valeh edirdi. Bəstəkarın əsərləri ilk dəfə Parisdə nəşr olunur.

Növbəti bir neçə il (1770 – 1774) Motsart İtaliyada yaşayır. Burada ilk dəfə olaraq onun operaları (“Mitridat – Pontiya kralı”, “Lutsi Sulla”, “Stsipionun yuxusu”) tamaşaya qoyulur və böyük uğur qazanır. Zaltsburqa qayıtdıqdan sonra bəstəkar sonata, opera, kvartet və simfoniyalar bəstələməyə başlayır.

1772-ci ildə xoş təsadüf nəticəsində Motsart avstriya bəstəkarı Y.Haydnla tanış olur və bu tanışlıq onların arasında dostluq, eyni zamanda müəllim və tələbə münasibəti yaratmış olur. Motsart Haydnın fikrini yüksək qiymətləndirir və onun hər bir tənqidini qəbul edirdi. Bir dəfə Haydn bəstəkarın atası ilə söhbət edərkən demişdir: “Oğlunuz şəxsən tanıdığım bəstəkarlar arasında ən görkəmlisidir. Onun zövqü var və ən əsası, dərin nəzəri biliklərə malikdir”.

Həmin illərdə gənc bəstəkarın geniş repertuarına 40-dan çox irihəcmli əsər daxil idi.

Volfqanq tezliklə atası kimi arxiyepiskop sarayında işə düzəlir. O, çox sayda bəstə sifarişləri alır. 1777-ci ildə Motsart Paris və Almaniyanın böyük şəhərlərinə konsert səyahətinə çıxır. Səfər boyu anası onu müşayiət edirdi. Lakin Parisdə Motsartın anası vəfat edir və bəstəkar Zaltsburqa qayıtmalı olur. Yaşlı arxiyepiskopun ölümündən sonra sarayda vəziyyət pisləşir. Motsart arxiyepiskopun onunla rəftarından, bəstəkarı bir qulluqçu kimi qəbul etməsindən narazı olur. Bu səbəblə, 1781-ci ildə Motsart saraydakı xidmətini dayandıraraq Vyanaya köçmək qərarına gəlir.

80-ci illərdə Motsartın sənəti öz yüksək nöqtəsinə çatmışdır. Məhz həmin dövrdə o, ən məşhur operalarını – "Fiqaronun toyu", "Sehrli fleyta", "Don Juan", həmçinin məşhur “Kiçik gecə serenadası” və son üç simfoniyasını yaradır. Bəstəkarın musiqisi həddindən artıq sevilirdi və sifarişçilər tərəfindən çox yüksək qiymətləndirilirdi.

Motsartın son əsəri, ölümündən əvvəl, 1791-ci ildə yazılmış və sona çatdırılmamış "Rekviem" əsəri olmuşdur. Həmin il Motsart ağır xəstələnir. 5 dekabr 1791-ci ildə bəstəkar vəfat edir və Vyanada kütləvi məzarlıqda dəfn olunur.

**Klavir yaradıcılığı**. Fortepiano üçün Motsart çox sayda müxtəlif əsərlər yazmışdır. Onların arasında sonata, fantaziya, rondo və variasiyalar vardır. Bunlardan 19 sonata və 3 fantaziya bəstəkarın klavir yaradıcılığında xüsusi yer tutur.

Motsartın mühüm nailiyyətləri arasında yeni növ sonataların – lirik və dramatik fortepiano əsərlərinin yaradılması olmuşdur. Bəstəkarın lirik sonatalarında lirika müxtəlif çalarlarla – parlaq, şən, həyəcanlı və s. xüsusiyyətlərlə ifadə olunur. Bir çox fortepiano əsərlərinin lirik-poetik təbiəti bilavasitə melodiya vasitəsilə ötürülür. Öz əsərlərində Motsart melodiyaya çox böyük önəm verirdi. O, söyləyirdi ki, melodiya “musiqinin mahiyyətidir”.

Motsart böyük bəstəkar olmaqla yanaşı, həm də görkəmli virtuoz ifaçı idi. Onun ifa tərzi zərifliyi və fərqliliyi ilə seçilirdi. Bəstəkarın, özünəməxsus ifa üslubu xüsusiyyətləri onun klavir musiqisində özünü aydın şəkildə göstərmişdir.

Sonataların əksəriyyəti, üçhissəli silsilə şəklindədir. Lakin sonatalardan bir neçəsi istisna təşkil edir ki, bunlardan biri də Motsartın "Türk marşlı sonata"sı kimi tanınan və qeyri adi silsilə formasına malik A-dur sonatasıdır.

**Sonata A-dur.** *I hissə sonata allegrosu* formasında deyil, 6/8 ölçüsündə yazılmış, yüngül və sakit, zərif, mahnıvari mövzusu ilə səslənən altı variasiyadan ibarətdir. Onun yumşaq, uçuşan ritmi qədim italyan rəqsi – "Sitsiliana"nı xatırladır.

***Birinci hissə. Variasiya mövzusu:***

https://www.youtube.com/watch?v=CnazZqQD2E8




Variasiyalar arasında demək olar ki, təzadlı məqamlar yoxdur. 1-ci variasiya mövzunun zərifliyini qoruyub saxlayır. 2-ci variasiyada zəriflik yumor çalarları ilə səsləşir (sol əlin partiyasında "şıltaq" xarakterli forşlaqlar mövcuddur). Yalnız lya minor tonallığında yazılmış bir qədər həyəcanlı 3-cü variasiya müəyyən ziddiyyət təşkil edir. Sol əlin sağ əl üzərindən atılması ilə 4-cü variasiya daha cəsarətlidir. İlkin olaraq *Andante grazioso* tempinin çox yavaş *Adagio* tempi ilə əvəz olunduğu 5-ci variasiya – melodik instrumental ariyadır. Son 6-cı variasiya Allegro tempində və 4/4 ölçüdə səslənir. Burada mövzu qətiyyətli yürüş ab-havasını canlandırır.

Sonatanın *II hissəsi* (A-dur) üçhissəli *da capo* formasında yazılmış menuetdir. Əsas mövzuda qəti və hökmlü musiqi incə və axıcı intonasiyalarla müqayisə edilir.

***İkinci hissə. Əsas mövzu:***

*https://www.youtube.com/watch?v=ix5G8SBwZP4*




Trionun mövzusu axarlı və həzindir.

Motsart sonatanın *III hissəsini* (a-moll) "**Alla turca**" adlandırmışdır. III hissə *rondo* formasındadır. Burada zərif və rəqsvari əsas mövzu

***Üçüncü hissə. Əsas mövzu:***

*https://www.youtube.com/watch?v=hfoHsQ2Jptk*



A-dur tonallığında verilmiş enerjili refren mövzusuyla ziddiyyət təşkil edir.

***Refren mövzusu:***

https://www.youtube.com/watch?v=hfoHsQ2Jptk (səslənmənin vaxtı – 0:45)



Refren mövzusunun müşayiəti zərb alətlərini təqlid edərək türk “yeniçəri”[22] musiqisinin səslənməsini imitasiya edir.

**Do minor fantaziyası** faciə xarakterlidir. Fantaziyanın inkişaf xətti faciəvi, dramatik və lirik-oxunaqlı şöbələrinin növbələşməsi və müqayisəsi əsasında qurulub. Əsərin əvvəlində və sonunda təkrarlanan mövzu fantaziyanı bitkin formalı kompozisiya kimi göstərir. Fantaziya altı hissədən ibarətdir. 1-ci (c-moll)

***Birinci hissə:***

https://www.youtube.com/watch?v=HS0qKLXqJbk




3-cü (e-moll) və 5-ci (g-moll) hissələr təzadlarla dolu, tonal planı baxımından qeyri-sabit, improvizasiya xarakterlidir. Bu hissələrə əks olaraq, major tonallığında səslənən 2-ci (D-dur)

***İkinci hissə:***

https://www.youtube.com/watch?v=Ui9pyxdVX6Y (səslənmənin vaxtı – 3:34)



və 4-cü (B-dur) hissələr oxunaqlı, lirik və tonal planı baxımından dəqiqdir. Mövzunun inkişafında, əsasən, variasiya üsulundan istifadə olunur.

[22] Yeniçərilər – türkcə tərcümədə "yeni ordu" – 1365 – 1826-cı illərdə Osmanlı İmperiyasının silahlı qüvvələrinin nizami piyada qoşunu. XVIII əsrdə “yeniçəri” musiqisi bütün Avropada geniş yayılmışdır. Türk musiqisinə marağın artması hərbi hadisələrlə bağlı idi.

***Dördüncü hissə:***

https://www.youtube.com/watch?v=Ui9pyxdVX6Y (səslənmənin vaxtı – 7:08)




Nəhayət, 6-cı hissədə 1-ci hissənin mövzusu səslənir ki, bu da öz növbəsində dairəni sanki bağlamış olur.

Bəstəkarın **do minor sonatası** fantaziyadan bir il əvvəl yazılmış, lakin sonradan bu iki əsər bəstəkar tərəfindən birləşdirilmişdir. Beləliklə, qeyri-adi bir silsilə yaranmış və fantaziya, sanki, sonatanın müqəddiməsi rolunda çıxış etmişdir. Sonata üç hissədən ibarətdir. Fantaziyanın faciəvi xarakteri burada da öz əksini tapır.

*I hissənin* əsas mövzusu Fantaziyada olduğu kimi, iki elementdən ibarətdir: güclü, iradəli və zərif

***Birinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=L8agdWO-t0g




Lirik xarakterli köməkçi mövzunun (Es-dur) ibarələri müxtəlif registrlərdə səslənir.

***Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=L8agdWO-t0g (səslənmənin vaxtı – 0:35)




Əsas mövzunun 1-ci elementi üzərində qurulmuş kiçik işlənmə bölməsi dinamikliyi ilə seçilir. Reprizdə köməkçi mövzunun minor tonallığında səslənməsi həmin bölmənin faciəvi xüsusiyyətini daha da gücləndirir.

Aydınlığı və lirik xarakteri ilə səciyyələnən *II hissə* (Es-dur) mürəkkəb üçhissəli formada yazılmışdır.

***İkinci hissə:***

[https://www.youtube.com/watch?v=s4sueQLMXE4](https://www.youtube.com/watch?v=s4sueQLMXE4) (səslənmənin vaxtı – 4:18)




*III hissə* isə rondo-sonata formasındadır. Final, I hissəyə xas olan qəhrəmanlıq pafosundan məhrumdur. Sinkopalı ritm, qeyri-sabit səslərin çoxluğu əsas mövzuya xüsusi gərginlik gətirir.

***Üçüncü hissə. Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=s4sueQLMXE4](https://www.youtube.com/watch?v=s4sueQLMXE4) (səslənmənin vaxtı – 11:48)




I hissədə olduğu kimi, əvvəl majorda (Es-dur) səslənən lirik köməkçi mövzu bu dəfə də reprizdə minor tonallığında təqdim olunur.

***Köməkçi mövzu:***

[https://www.youtube.com/watch?v=s4sueQLMXE4](https://www.youtube.com/watch?v=s4sueQLMXE4) (səslənmənin vaxtı – 12:12)



İrihəcmli kodada əsas tonallıq – c moll – öz təsdiqini tapmış olur.

***Mövzuya aid suallar:***

1. V.A.Motsartın ən məşhur operaları hansılardır?
2. V.A.Motsartın sonuncu əsəri hansı olmuşdur?
3. A-dur sonatasındakı sonata silsiləsi ilə ənənəvi sonata silsiləsi arasında hansı fərq var?
4. Motsart hansı səbəbdən A-dur sonatasının üçüncü hissəsini *Alla turca* adlandırmışdır?
5. C-moll fantaziyasının quruluşu necədir?
6. C-moll fantaziya və sonatası hansı xarakterdədir?

*13-cü dərs:* **Motsart – opera reformatoru kimi. Opera yaradıcılığı. "Fiqaronun toyu", "Don Juan" operaları.**

Motsart qısa ömrünün bütün dövrlərində opera musiqisi yazmışdır. Onun opera sahəsindəki ən yüksək nailiyyətləri yaradıcılığının son onilliyinə təsadüf edir. Bəstəkar müxtəlif janrlarda operalar yazmışdır. Bunların arasında zinqşpil[23] – "Saraydan qaçırılma", "Sehrli

[23] Zinqşpil – komik operanın avstro-alman növü.

fleyta", buffa-operaları – "Fiqaronun toyu", "Hamı belə edir", opera-seriyalar – "İdomeney", "Titin mərhəməti", həmçinin musiqili faciə və komediya xüsusiyyətlərini özündə birləşdirən "Don Juan" operası kimi musiqi əsərləri vardır.

Qlyukla yanaşı, opera janrının islahatçılarından biri də Motsart olmuşdur. Operada süjet xəttini hər zaman əsas götürən Qlyukun əksinə, Motsart operanın dramaturji inkişafını daha çox musiqidə görürdü. Motsartın operalarında konkret olaraq müsbət və ya mənfi personajlar yoxdur. Onun personajları canlı və çoxşaxəlidir. Opera personajının fərdiliyini vurğulamaq bacarığı Motsartın, bir opera dramaturqu olaraq, ən mühüm nailiyyətlərindən olmuşdur.

Ənənəvi opera janrları Motsartın yaradıcılığında özünün forma və şəklini tamamilə yeniləmişdir. Belə ki, "Fiqaronun toyu" operasını opera-buffa adlandıran bəstəkar bu janrı yeni tərzdə şərh edir və onun əsasında ilk xarakterlər komediyasını yaradır. Operanın hər bir qəhrəmanı, təkcə ariyalarda deyil, həmçinin ansambl nömrələrində də özünəməxsus musiqi dili və intonasiya xüsusiyyyətləri ilə səciyyələndirilir.

Bəstəkar öz operalarında komik və ciddi məqamları daim "qarışıq" şəkildə təqdim etmişdir. Bu janr sintezi özünü daha çox Motsartın son dövrdə yazdığı operalarında, əsasən də "şən dram" (*dramma giocoso*) adlandırdığı "Don Juan" operasında aydın şəkildə büruzə verir.

Milli opera yaratmaq məqsədi ilə Motsart sonuncu "Sehrli fleyta" operasını alman dilində yazır və həmin arzusuna çatır.

**"Fiqaronun toyu"** (1886) Motsartın italyan dilində yazılmış buffa-operasıdır. Libretto Lorenzo da Ponte tərəfindən yazılıb. Operanın süjeti məşhur fransız dramaturqu Pyer Bomarşenin (1732 – 1799) "Çılğın gün və ya Fiqaronun toyu" komediyasından götürülmüşdür ki, bu əsər dramatik trilogiyanın II hissəsini təşkil edir.[24] Operanın premyerası 1786-cı ilin may ayında Vyanada baş tutmuşdur.

*Əsas iştirakçılar:*

Qraf Almaviva – bariton;
Fiqaro, onun qulluqçusu – bariton;
Qrafinya Rozina – soprano;
Süzanna, onun qulluqçusu və Fiqaronun nişanlısı – soprano;
Kerubino, qrafın köməkçisi (paj) – metso-soprano.

Hadisə XVIII əsrin sonunda, Andaluziyada[25] Qraf Almavivanın sarayında baş verir.

Opera uvertüra ilə başlayır. Burada, bir çox uvertüradan fərqli olaraq, növbəti səhnələrdə səslənən mövzulardan istifadə olunmur, yalnız gələcək hadisələrin ümumi əhval-ruhiyyəsi, onun valehedici çəldliyi və coşqun şənliyi ifadə olunur.

***Uvertüra. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=Ri1gTFOCtyQ




[24] "Sevilya bərbəri" adlanan I hissəyə isə C.Rossini eyniadlı opera bəstələmişdir
[25] Andaluziya – İspaniyanın əyaləti.

***Köməkçi mövzu:***
https://www.youtube.com/watch?v=tbbqyRoNwxA (səslənmənin vaxtı – 0:46)



**I pərdə. 1-ci şəkil.** Qraf Almavivanın sarayında Fiqaro və Süzannanın toyu üçün hazırlıq işləri görülür. Lakin Süzanna qrafın ona qarşı olan diqqət və marağını duyaraq bir qədər narahatlıq hissi keçirir. Bundan xəbər tutan Fiqaro qrafı cəzalandırmaq qərarına gəlir. Onun qisas hissi, zəkasını və cəsarətini özündə cəmləşdirən "Əgər ağa rəqs etmək istəsə" («Если захочет барин попрыгать») kavatinasında özünü büruzə verir. Kavatinanın istehzalı xarakteri isə menuetə xas olan rəqs ritmi ilə vurğulanır.

***I pərdə. Fiqaronun kavatinası «Əgər ağa rəqs etmək istəsə»:***
https://www.youtube.com/watch?v=km0mtvlN44k




Tez-tez bu və ya digər qıza ürəyini açan gənc qulluqçu Kerubino indi də Süzannaya sevgisini etiraf edir. Titrək və həyəcanlı xarakterli "Söyləyə və izah edə bilmirəm" («Рассказать, объяснить не могу я») ariyasında aşiq olmuş Kerubinonun poetik obrazı təsvir edilir.

***Kerubinonun ariyası "Söyləyə və izah edə bilmirəm":***
https://www.youtube.com/watch?v=3u_j0W08riI




Qraf, musiqi müəllimi Don Baziliodan Kerubinonun da qrafinyaya qarşı hisslərini öyrəndikdən sonra qəzəblənir və qulluqçunu orduya göndərməyi əmr edir. Səhnə Fiqaronun "Buruqsaç, gumrah oğlan" («Мальчик резвый, кудрявый») rişxəndli ariyası ilə bitir.

***Fiqaronun ariyası "Buruqsaç, gumrah oğlan":***
https://www.youtube.com/watch?v=IVCCzRiVarM




Hərbi marş kimi səslənən, şeypur və litavraların sədaları ilə müşayiət olunan ariya Fiqaronun ehtiras və enerji dolu obrazını təsvir edir.

**2-ci şəkil.** Qrafinya kədər və qüssəli halda öz otağında əyləşib. Onun "Məhəbbət Tanrısı" («Бог любви») ariyası lirik xarakter və nəcib hisslərlə diqqəti cəlb edir.

***Qrafinyanın ariyası "Məhəbbət tanrısı":***
https://www.youtube.com/watch?v=pb0uVyeF8BU




Qrafinya, Süzanna və Fiqaro anonim məktub və libas dəyişmək yolu ilə qrafa qarşı hiylə işlətmək istəyirlər. Bu zaman Kerubino gəlir və məhəbbət haqqında "Ürəyi həyəcanlandırır" («Сердце волнует») kansonasını[26] oxuyur.

***Kerubinonun kansonası "Ürəyi həyəcanlandırır":***
https://www.youtube.com/watch?v=hQbd6DpQPeI&t=23s

[26] Kansona (ital. "canzone") – lirik şerə əsaslanan mahnı.




Qrafin səsini uzaqdan eşidən Kerubino qonşu otaqda gizlənir və qapını bağlayır. Qraf səs eşidir və qapını sındırmaq üçün alət dalınca gedir. Süzanna dərhal pəncərədən atılan Kerubinonu əvəz edir. Geri qayıdan qraf qapının arxasında qulluqçu Süzannanı görür. Bütün bu qarışıq vəziyyət Fiqaronun, onun ardınca doktor Bartolo və ev işçisi Marselinanın gəlişi ilə başa çatır. Marselina bəyan edir ki, Fiqaro ona yazılı vəd verdiyinə görə onunla evlənməlidir. I pərdə hər bir kəsin, yaranmış çətin vəziyyətlə bağlı, fikrini əks etdirən möhtəşəm ansambl səhnəsi ilə tamamlanır.

**II pərdə. 1-ci şəkil.** Qrafla Süzanna arasındakı söhbətdən sonra gülünc məhkəmə səhnəsi başlayır. Hakim Fiqaronun Marselinadan borc alarkən yazılı şəkildə verdiyi vəd əsasında onun qarşı tərəflə evlənməsinə qərar verir. Fiqaro etiraz edir və söyləyir ki, onun evlənməsi üçün valideynlərinin (naməlum olan) razılığı olmalıdır. Xeyli danışıqdan sonra məlum olur ki, Fiqaro Bartolo və Marselinanın oğludur. Ailənin qovuşma anında Süzanna içəri daxil olur və Fiqaronu şübhəli rəqibinin qolları arasında görərək əvvəlcə bərk qəzəblənir, lakin sonra hər şey aydınlaşır və hər kəs xoşbəxt olur. Səhnə valehedici sekstetlə bitir.

Növbəti səhnədə Qrafinya və Süzanna məktub yazır. Həmin məktubda qulluqçu Qrafı gecə görüşünə dəvət edir. Lakin Süzannanın qiyafəsini geyinərək həmin görüşə qrafinya özü getməlidir. Səhnəyə Kerubino daxil olur və Qraf ona hələ də alaya getmədiyi üçün qəzəblənir. Lakin bağbanın qızı Barbarina qrafdan Kerubinonun bağışlanmağını və onların evlənməsinə icazə verməsini xahiş edir. Qraf Almaviva, könülsüz olsa da, razılaşır.

**2-ci şəkil.** Qraf sarayının bağçası. Gecə vaxtıdır. Qrafin qəzəbindən qorxan Barbarina fənərlə bağda dolaşaraq qrafın Süzannaya ünvanladığı məktubu və sancağı axtarır. Barbarinanın sadəlövh və zərif "Düşürdüm, itirdim" («Уронила, потеряла») ariyası səslənir.

***Barbarinanın ariyası "Düşürdüm, itirdim":***
*https://www.youtube.com/watch?v=j-DosPShJ2w*




Fiqaronun nişanlısı və sahibi ilə bağlı şübhələri məktubdan xəbər tutduqdan sonra onu daha çox narahat edir. Süzannanın əsl sevgisini tərənnüm etdiyi “Gəl, əziz dostum”(«Приди, мой милый друг») lirik ariyası səslənir.

***Süzannanın ariyası “Gəl, əziz dostum”:***

[https://www.youtube.com/watch?v=Ew0r-qVIpP4](https://www.youtube.com/watch?v=Ew0r-qVIpP4) (səslənmənin vaxtı – 1:52)




Fiqaro bunu eşitdikdə qısqanclıq hissinə qapanır. Libaslarını dəyişmiş Süzanna və qrafinya peyda olur. Daha sonra səhnəyə daxil olan Kerubino, qrafinyanın Süzanna olduğu düşüncəsi ilə, ona sevgisini etiraf edir. Bu səhnəni izləyən qraf Kerubinonu qovur və özü zənn etdiyi Süzannaya sevgisini etiraf edir. Bunu görən Fiqaro “qrafinya”ya xoş münasibət bəsləməyə başlayır ki, bu da onu (əslində Süzannanı) əsəbiləşdirir. Fiqaro, əslində aldadıcı bir görünüşün arxasında kimin gizləndiyini təxmin etmişdir və onun qəzəbindən məmnunluq duyurdu. Sonra böyük sevinc hissləri ilə Süzanna ilə barışır. Fiqaro "qrafinya"nı köşkə doğru aparır. Bunu görən qraf qəzəblə nökərlərini çağırır. Kerubino, Barbarina, Marselina da gəlirlər. Qrafinya zənn edilən maskanın altından çıxan Süzanna hər kəsi təəcübləndirir. Elə həmin vaxt qrafın guya sevgi etiraflarını bəyan etdiyi digər köşkdən əsl qrafinya çıxır. Qraf çox axmaq bir vəziyyətə düşür. O, sadiqliyinə əmin olduğu xanımından üzr istəyir. Opera ümumi barışıq və şənlik ilə başa çatır.

V.A.Motsartın **“Don Juan”**operası Antonio de Samoranın pyesi əsasında yazılmışdır. Libretto Lorentso da Ponteyə aiddir. Opera iki pərdədən ibarətdir. Əsər ilk dəfə 1787-ci ilin oktyabrında Praqada səhnəyə qoyulmuşdur.

Bəstəkar bu operanı "şən dram" (italyanca – *dramma giocoso*) adlandırırdı. Operada, həqiqətən də, “opera-buffa”nın xüsusiyyətləri mövcuddur. Belə ki, hər iki pərdənin sonunda möhtəşəm final səhnəsi, musiqi nömrələrinin *secco* reçitativləri ilə növbələşməsi, kişi səslərinin

üstünlük təşkil etməsi opera-buffa üçün səciyyəvi xüsusiyyətlərdən sayılırdı. Lakin heç bir komik operada Motsartın “Don Juan” operasındakı kimi komediya ilə faciə (əsas qəhrəmanın ölümü) bu dərəcədə qarşı-qarşıya qoyulmamışdır. Mahiyyət etibarı ilə, Motsart “Don Juan”da tamamilə yeni opera janrı – psixoloji musiqili dram yaratmışdır ki, bu da öz növbəsində XIX əsrdə öz inkişafını tapa bilmişdir.

***İştirak edənlər***

• Don Juan (bas/bariton), son dərəcə azğınlaşmış gənc zadəgan
• Komandir (bas)
• Donna Anna (soprano), onun qızı, Don Ottavionun nişanlısı
• Don Ottavio (tenor)
• Donna Elvira (soprano), Don Juan tərəfindən tərk edilmiş Burqoslu xanım
• Leporello (bas), Don Juanın xidmətçisi
• Serlina (soprano/metso-soprano), kəndli qızı
• Mazetto (bas), Serlinanın nişanlısı

**Uvertüra** Komandorun mövzusu üzərində qurulmuş girişlə başlayır. Ostinatalı ritmlə birləşən ağır akkordlar fəlakət ab-havası yaradır.

***Uvertüra. Giriş:***
https://www.youtube.com/watch?v=lAvIQARpudk




Uvertürada yaranmış qorxu dolu anlar həyatsevər və enerjili *sonata allegrosu* ilə əvəz olunur,

***Əsas mövzu:***
https://www.youtube.com/watch?v=nc1RB2BfY8g (səslənmənin vaxtı – 2:03)



*Köməkçi mövzu:*
https://www.youtube.com/watch?v=nc1RB2BfY8g (səslənmənin vaxtı – 2:44)



**I pərdə** beş şəkildən ibarətdir.

**1-ci şəkil.** Hadisələr gecə vaxtı Sevilyada baş verir. Don Juan Donna Annanın otağına daxil olur. Donna Annanın fəryadına atası – komandor gəlir. Döyüşdə Don Juan komandoru yaralayır. Donna Annanın nişanlısı qatildən qisas alacağına dair and içir.

**2-ci şəkil.** Leporello, sahibinin keçmiş sevgilisi Donna Elviranın fikrini yayındıraraq, ona Don Juanı tapmaqda mane olur. Burada qulluqçunun "Buyurun! Bu gözəllərin siyahısıdır" («Вот извольте! Это список красавиц») ariyası səslənir. Ariya iki hissədən ibarətdir: birincisi reçitativ xarakterli, opera-buffanın komik ariyaları üslubundadır,

***Leporellonun ariyası "Buyurun! Bu gözəllərin siyahısıdır":***
https://www.youtube.com/watch?v=kX5yNkSb8-k




ikincisi isə oxunaqlı, işıqlı xarakterli menuet ritmindədir – "O, sarışın qızda sadəliyi qiymətləndirir"(«Он в блондинке ценит скромность»).

***"O, sarışın qızda sadəliyi qiymətləndirir":***
https://www.youtube.com/watch?v=kX5yNkSb8-k (səslənmənin vaxtı – 2:08)




Toy mərasimi yaxınlaşır, kəndlilər – Mazetto və Serlina evlənirlər. Don Juan qızı bəyənir və onu öz sarayına dəvət edir. Don Juan və Serlinanın "Serlina, əlini mənə ver" «Ручку, Церлина, дай мне» duettinosu səslənir.

*Don Juan və Serlinanın duettinosu “Serlina, əlini mənə ver”:*
[*https://www.youtube.com/watch?v=H-GlueglMU4*](https://www.youtube.com/watch?v=H-GlueglMU4)




Donna Anna peyda olur və yad adamın simasında atasının qatilini tanıyaraq qisas almağa hazırlaşır. Donna Annanın qətiyyət xarakterli “İndi hər şey məlumdur!” («Теперь всё известно!») ariyası səslənir. Don Juan gizlənir.

***Donna Annanın ariyası “İndi hər şey məlumdur!”:***
[*https://www.youtube.com/watch?v=m0_FKinmggM*](https://www.youtube.com/watch?v=m0_FKinmggM)




**3-cü şəkil.** Don Juan şən əhval-ruhiyyədə Leporellonun sarayda baş verən hadisələr haqqında hekayəsini dinləyir. Onun enerji və ehtiras dolu məşhur “şampan ilə” ariyası (“Qanı qızdırmaq üçün”) səslənir.

***“Şampan ilə” ariya:***
[*https://www.youtube.com/watch?v=C4r45ACv_mM*](https://www.youtube.com/watch?v=C4r45ACv_mM)




**4-cü şəkil və 5-ci şəkil.** Don Juanın sarayı qonaqlarla doludur. Donna Anna, Donna Elvira və Don Ottavio hər yerdə Don Juanı ifşa etmək üçün axtarırlar.

Don Juan Serlinanı özü ilə aparmağa çalışır. Bütün qonaqlar onun qışqırığına toplaşırlar, lakin qarışıqlıq zamanı Don Juan Leporello ilə birlikdə qaçmağa müvəffəq olur.

**II pərdə** dörd şəkildən ibarətdir.

**1-ci şəkil.** Donna Elviranın evinin qarşısındakı küçə. Burada Don Juan Donna Elviranın qulluqçusuna aşiq olur. O, mandolinanın müşayiəti ilə "Tez çıx" («О выйди поскорее») zərif serenadasını ifa edir.

***Don Juanın serenadası "Tez çıx":***

https://www.youtube.com/watch?v=dh_skNsm7iQ




**2-ci şəkil.** Qəzəblənən Donna Elvira, Donna Anna, Don Ottavio, Mazetto və Serlina nəhayət Don Juanı tapıb, onun üstünə hücum edirlər, lakin həmin adamın, sahibinin libasını geyinmiş Leporello olduğu ortaya çıxır.

**3-cü şəkil.** Sevilya qəbiristanlığı. Don Juan və Leporello bir-birinə son sərgüzəştlərini danışırlar. Onlar komandorun qəbri qarşısında dayanıb, onun heykəli ilə zarafatlaşaraq şam yeməyinə dəvət edirlər.

**4-cü şəkil.** Don Juan öz otağında oturub dəbdəbə ilə şam edir. Qəflətən qapıda komandorun heykəli görünür. Leporello və qulluqçular dəhşətə gəlirlər. Heykəl qorxunc səslə Don Juana, günahlarına görə tövbə etməyi əmr edir, lakin Don Juan, heç nəyə peşman deyil. Şimşək və ildırım çaxması arasında heykəl yox olur, Don Juan isə yerə yıxılaraq qeyb olur.

**Mövzuya aid suallar:**

1.V.A.Motsart hansı opera janrlarında yazmışdır?

2.V.A. Motsartın opera islahatı ilə K.V.Qlyukun islahatı arasında hansı fərq vardır?

3.V.A.Motsartın operalarında hansı dildən istifadə olunur və onun hansı operasının librettosu alman dilində yazılmışdır?

4. “Fiqaronun toyu” operası hansı janrda və kimin süjeti əsasında yazılmışdır?

5. V.A.Motsart “Don Juan” operasını necə adlandırmış və hansı opera janrına aiddir?

*14-cü dərs:* **Motsart. Simfonik və vokal-instrumental yaradıcılığı. Simfoniyalar № 40, 41 “Yupiter”, Rekviyem.**

Simfonik əsərlər Motsartın yaradıcılıq irsində xüsusi yer tutur. Onların əksəriyyəti Vyana dövründən əvvəl yazılmışdır. Motsartın ilk simfoniyalarında onun özünəməxsus üslubu ilə yanaşı Haydnın erkən simfonizminə aid xüsusiyyətləri də nəzərə çarpır. Bu simfoniyalar mövzu baxımından çox zəngin və müxtəlifdir.

Motsartın 1788-ci ildə yazdığı üç simfoniya onun simfonik irsinin zirvəsi olmuşdur. Onların hər birində yeni bədii fikir ifadə olunur:

- № 39 (Es-dur) – Motsartın ən gumrah və işıq saçan simfoniyalarından biridir. Haydnın yazı üslubuna çox yaxındır;
- № 40 (g-moll) romantizm dövrünün musiqisinə daha yaxındır.
- № 41 (C-dur, "Yupiter") Bethovenin qəhrəmanlıq ideyalarını qabaqlamış olur. G-moll simfoniyası bir obraz ətrafında necə cəmləşmişsə, "Yupiter" simfoniyasının obrazlı aləmi də bir o qədər çoxşaxəlidir.

Motsartın simfonik əsərlərinin səciyyəvi xüsusiyyətləri bunlardır: silsilə hissələri və yaxud ayrı-ayrı mövzular arasında yaranan ziddiyyət; menuetdən başqa bütün hissələrdə sonata formasından istifadə; polifonik texnikanın böyük rolu; vokal janrları ilə sıx əlaqə.

**№ 40-li simfoniya** Motsartın ən məşhur əsərlərindən biridir. Bu simfoniya 1788-ci ildə, 39 №-li simfoniyadan üç həftə sonra yazılmışdır.

Simfoniya klassik simfonik silsilədən ibarətdir.

*Birinci hissə.* I hissənin (*Allegro molto*, sonata allegrosu, g-moll) melodiyası violinlərə həvalə edilmiş əsas mövzudan başlayır. Bu mövzu həyəcanlı xarakterə malikdir. Burada "ah" və "nalə" intonasiyaları eşidilir.

***Birinci hissə. Əsas mövzu:***

https://www.youtube.com/watch?v=MZQS72JLFVw




Əsas mövzudan sonra bir qədər oynaq, rəqsvari köməkçi mövzu (B-dur) səslənir.

***Köməkçi mövzu:***

https://www.youtube.com/watch?v=xLAPstwuvG0 (səslənmənin vaxtı – 1:28)




Gərgin xarakterli işlənmə bölməsində yalnız əsas mövzu inkişaf edir. Reprizdə gərginliyin səngiməsi baş vermir, əksinə daha da şiddətlənir.

Ağır templi *ikinci hissə* (*Andante*, sonata forması, Es-dur). Burada sakit, düşüncəli əhval-ruhiyyə hökm sürür. Həyəcanlı I hissədən sonra yüngül, sakit, oxunaqlı *Andantenin* musiqisi səslənir. II hissədə mövzular arasında kəskin təzadlar yoxdur.

***İkinci hissə. Əsas mövzu:***
[https://www.youtube.com/watch?v=60QhnVkVG5I](https://www.youtube.com/watch?v=60QhnVkVG5I)




*Üçüncü hissə* (*Allegretto*, mürəkkəb üçhissəli forma, g-moll) – menuetdir. Burada menuet incə saray rəqsi kimi səslənmir. Kənar hissələrin mürəkkəb ritmik yazısı ilə fərqlənən hərəkətli mövzusu

***Üçüncü hissə. Menuet:***
[https://www.youtube.com/watch?v=17D4VhyY5Xs](https://www.youtube.com/watch?v=17D4VhyY5Xs)




eyni adlı tonallıqda yazılmış orta hissə (trio) ilə ziddiyyət təşkil edir. Burada simli və nəfəsli qrupların ifasında daha sakit mövzu səslənir.

***Trio:***
[https://www.youtube.com/watch?v=17D4VhyY5Xs](https://www.youtube.com/watch?v=17D4VhyY5Xs) (səslənmənin vaxtı – 1:27)




Cəld *finalın* əhval-ruhiyyəsi (*Allegro assai*, sonata allegro, g-moll) I hissənin musiqisi ilə bir-qədər oxşardır. Final bütün simfoniyanın kulminasiya nöqtəsidir.

***Final. Əsas mövzu:***
[https://www.youtube.com/watch?v=y5HfFOuhl50](https://www.youtube.com/watch?v=y5HfFOuhl50)



***Köməkçi mövzu:***
[https://www.youtube.com/watch?v=y5HfFOuhl50](https://www.youtube.com/watch?v=y5HfFOuhl50) (səslənmənin vaxtı – 0:59)



**41 №-li simfoniya.** Motsartın sonuncu simfoniyası **"Yupiter"** adlanır. Simfoniyanın musiqisi insan qanunlarına tabe olmayan təbiət hadisələrini əks etdirir. Simfoniya 4 hissədən ibarətdir. I hissənin əsas mövzusu (*Allegro vivace*, C-dur) iki ziddiyyətli element üzərində qurulub. Birincisi iradəli və enerjili, (*tutti, f, unison*), ikincisi isə (*p*, akkord təqdimatı, simlilərin ifasında) yumşaq xarakterlidir.

***Birinci hissə. Əsas mövzu:***
[https://www.youtube.com/watch?v=DFQLcbG2Cns](https://www.youtube.com/watch?v=DFQLcbG2Cns)




Dominanta tonallığında səslənən köməkçi mövzu xəyalpərəst və incə xarakter daşıyır (xromatizmlər, zərif ritmlər, simli alətlərin səslənməsi.

***Köməkçi mövzu:***
[https://www.youtube.com/watch?v=pAimB2PEjS8](https://www.youtube.com/watch?v=pAimB2PEjS8) (səslənmənin vaxtı – 1:36)



Tamamlayıcı mövzu müstəqil tematik material üzərində qurulmuşdur və şən xarakterə malikdir.

İşlənmə bölməsi tamamlayıcı mövzudan başlayır. İşlənmənin ikinci hissəsində əsas partiyanın hər iki elementi inkişaf etdirilir. Reprizdə bütün mövzular bir qədər fərqli şəkildə səslənir.

Lirik xarakterli *ikinci hissədə* (*Andante cantabile*, F-dur, sonata forması) sakit əhval-ruhiyyə hökm sürür, lakin bağlayıcı mövzunun dramatik xüsusiyyəti yaranmış ab-havanı bir qədər dəyişdirir. Onun tutqun, minor çalarlı musiqisi, qırıq və qarışıq ritmləri əsas və köməkçi mövzularına qarşı qoyulur. Reprizdə isə bu mövzu yoxdur.

***İkinci hissə. Əsas mövzu:***

[https://www.youtube.com/watch?v=uyKXP65wTAc](https://www.youtube.com/watch?v=uyKXP65wTAc)




*Üçüncü hissə* – *Menuetin* musiqisi (*Allegretto*, C-dur, mürəkkəb 3 hissəli forma) çoxşaxəliliyi ilə seçilir. Lirik oxunaqlı melodiya qəhrəmani, iradəli frazalarla uzlaşır.

***Üçüncü hissə. Menuet:***

[https://www.youtube.com/watch?v=2-U55diKrxs](https://www.youtube.com/watch?v=2-U55diKrxs)



*Trioda* (C-dur) rəqs xüsusiyyətləri daha aydın ifadə olunur. Burada incə zarafatla bərabər lirik xüsusiyyətlər də özünü büruzə verir.

***Trio:***

[https://www.youtube.com/watch?v=2-U55diKrxs](https://www.youtube.com/watch?v=2-U55diKrxs) (səslənmənin vaxtı – 1:52)



Simfoniyanı möhtəşəm bayram əhval-ruhiyyəli final bitirir (*Molto allegro*, C-dur, sonata allegrosu).

***Final:***

[https://www.youtube.com/watch?v=y-pp_zviJ94](https://www.youtube.com/watch?v=y-pp_zviJ94)




Finalın zirvəsi sayılan koda hissəsində beş mövzunun bir-biri ilə həmahəng səslənməsi musiqiyə şən və həyatsevər xarakter bəxş edir.

**Vokal-instrumental yaradıcılığı.** Bəstəkarın geniş yaradıcılıq irsinin mühüm hissəsini xor musiqisi təşkil edir. O, xor və orkestr üçün irihəcmli əsərlər yazmışdır: 2 oratoriya, 18 messa, ruhani mövzuda əsərlər, motetlər, 4 ruhani və kübar məzmunlu alman kantatası, 3 mason kantatası və Rekviyem.

**"Rekviyem"** (latınca *requies* "sakitlik", "rahatlıq") – latın mətninə yazılmış dəfn messasıdır. Motsart ömrünün sonuna kimi bu əsər üzərində işləmiş, lakin sona çatdıra bilməmişdir. Bəstəkarın ölümündən sonra Rekviyemi onun tələbəsi Frans Züsmayer tamamlamışdır.

Rekviyem dörd solist, xor və orkestr üçün nəzərdə tutulmuş və altı ənənəvi hissədən ibarət olmuşdur. Onlar da öz növbəsində, ayrı-ayrı hissələrə bölünür – cəmi 15 hissə əmələ gəlir.

№ 1 – giriş duası – *Requiem aeternam* (Sən onlara əbədi dinclik göndər...) dərin kədərlə doludur.

***«Requiem aeternam»:***
*https://www.youtube.com/watch?v=BVnpVqokp5I*




№ 2 – *Kyrie eleison* (Rəbbim, rəhm et) cəld xarakterli ikili fuqadır.

***«Kyrie eleison»:***
*https://www.youtube.com/watch?v=MkcwhXYc4bo*




№ 3 – *Dies irae* (Qəzəb günü) Qiyamət Gününün alovlu mənzərəsini təsvir edir.

***«Dies irae»:***
https://www.youtube.com/watch?v=0T7eMctuJLQ




№ 8 – məşhur *Lacrimosa* ("Gözyaşları ilə bu gün gələcək") Rekviyemin kədərli ah-nalə intonasiyası ilə dolu olan lirik mərkəzidir.

***«Lacrimosa»:***

https://www.youtube.com/watch?v=k1-TrAvp_xs




***Mövzuya aid suallar:***

1. V.A.Motsartın neçə simfoniyası var və ilk simfoniyasını neçə yaşında yazmışdır?
2. V.A.Motsartın simfonik əsərlərinin xüsusiyyətləri hansılardır?
3. V.A.Motsartın 41 №-li simfoniyası hansı səbəbdən "Yupiter" adlandırılmışdır?
4. "Rekviyem" sözü hansı anlama gəlir?
5. V.A.Motsartın "Rekviyem" əsərini kim bitirmişdir?